

## Ermənilərin Ərdoğan xofu...

13

**Səs**

№ 229 (6429) 15 dekabr 2021-ci il. Qiymət 40 qəpik

# Brüsseldə

## birgə görüş olub



3

# "Media haqqında"

## yeni qanun layihəsi I oxunuşda qəbul edilib



6

# Möhtəşəm layihələr doğma Qarabağımızda reallaşır

4

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərimizdə uğurlu layihələr icra edir



# "Rəqibin adından çəkinməyəcəyik"



16

"Arzuolunmaz rəqibin düşdüyünü fikirləşə bilərik. İlk olaraq bizim rəqibimiz bilindi. Futbolçularımın daha da böyüməsi, Azərbaycana daha böyük klubların gəlməsi baxımından deməzdim sevinmişəm. Futbolumuzun inkişafı üçün hər zaman demişəm ki, bunun hər hansı bir faydası olacaq. "Marsel"ə qədər də xeyli sayda güclü...

## Ermənistan Rusiyaya qarşı təhlükəli oyun aparır!



Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda ABŞ-ın təşəbbüsü ilə videoformatda keçirilən Demokratiya...

15

# Mənşəyi

## bəlli olmayan dönərlər necə hazırlanır?



12

ŞOK FAKTLAR!

# Fransa

## erməniləri faşist bayrağı altında



8

# "Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib"

## *Prezident İlham Əliyevlə NATO-nun Baş katibi Yens Stoltenberq arasında görüş olub*

**NATO-nun Baş katibinin dəvəti əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Alyansın Baş katibi Yens Stoltenberq arasında görüş olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə NATO-nun Baş katibi Azərbaycanın Alyansın dəyərli tərəfdaşı olduğunu dedi və Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, Azərbaycan sülhməramlıları Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olublar və onlar 120 mindən çox insanın Əfqanıstan hava limanı vasitəsilə təxliyəsinə töhfə veriblər. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.**

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır və bu, artıq onun Alyansın mənzil-qərargahına yeddinci səfəridir. Bildirdi ki, Azərbaycan hərbçiləri 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət ediblər. Söhbət zamanı postmünaqişə dövründə regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı və Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlara hazır olduğu bildirildi. Həmçinin regiondakı təhlükəsizlik məsələləri qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın NATO-nun üzv ölkələri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinin olduğunu qeyd etdi, eləcə də Alyansın aparıcı üzv dövlətlərindən olan qardaş Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycanın 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı ilə tərəfdaşlığının vacibliyi vurğulandı.







Bu çərçivədə ölkəmizin NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında və digər proqramlarında fəal iştirak etdiyi, Azərbaycan Silahlı Qüvvələri ilə NATO Silahlı Qüvvələri arasında operativ hərbi uyğunlaşmanın inkişaf etdiyi diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycanın NATO-nun təlimlərində və ikitərəfli əsasda Türkiyə ilə Azərbaycan arasında keçirilən təlimlərdə iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin Brüsseldə Alyansın mənzil-qərargahında birgə mətbuat konfransı olub.

Baş katib Yens Stoltenberq bildirib ki, NATO Azərbaycanla tərəfdaşlığında dialoq və qarşılıqlı anlaşmaya böyük önəm verir: "Uzun illər ərzində aramızda güclü əməkdaşlıq olub. Bu gün əməkdaşlıq bir çox sahələri, bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər olan sahələri əhatə edir. NATO müttəfiqləri, həmçinin sizə köhnə sovet ordusundan qalmış artıq minaların və silah-sursatın zərərsizləşdirilməsi ilə bağlı kömək göstərmişdir. Bu gün biz birlikdə daha nələri edə biləcəyimizi müzakirə etdik.

Azərbaycan bizim Əfqanıstandakı sabiq missiyamıza mühüm töhfələr vermişdir və Azərbaycan Silahlı Qüvvələri Kabil hava limanında bu yay aparılan təxliyə işləri zamanı təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamışdır. NATO müttəfiqləri bir neçə gün ərzində 120 mindən çox insanın təyyarə ilə çıxarılaraq təhlükəsizliyinə nail olmuşdur. Bütün səyləriniz və dəstəyiniz üçün çox sağ olun. Cənubi Qafqazda təhlükəsizlik və sabitlik bizim hamımız üçün vacibdir. Bütün insanların sülh şəraitində gələcəyini təmin etmək üçün biz hər ikisi NATO-nun dəyərli tərəfdaşı olan Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını dəstəkləyirik."

Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib: "Biz Əfqanıstandakı sülhməramlı missiyamıza 2002-ci ildə başladıq və bu il avqustun sonunda onu bitirdik. Azərbaycan hərbçiləri Əfqanıstanı sonuncu tərk edən koalisiya qüvvələrinin hərbçiləri arasında idi. Əlbəttə ki, bu, birlikdə işləməyin böyük bir təcrübəsidir. Bu gün biz, həmçinin əməkdaşlıqla bağlı gələcək planlarımızı müzakirə etdik. Azərbaycan NATO-nun hərbi təlimlərində iştirak edir. Eyni zamanda, biz NATO-nun hazırkı və aparıcı üzvlərindən biri olan Türkiyə ilə yalnız bu il yeddi birgə hərbi təlim keçirmişik. Bu da regionda sülh və sabitlik işinə xidmət edir.

Biz cənab Baş katiblə Cənubi Qafqazda postmüharibə vəziyyətini müzakirə etdik. Azərbaycan sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqdir. Bizim səylərimiz regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsi məqsədi daşıyır. Bunun üçün ən yaxşı yol kommunikasiyaların açılması, aktiv dialoqun qurulması və yenidən qonşu olmağı öyrənməkdir. Bizim siyasətimiz çox açıq və aydındır. Ümidvaram ki, əgər Ermənistan tərəfindən xoş məram olsa, biz təklif etdiyimiz kimi iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik."

Dövlətimizin başçısı daha sonra jurnalistlərin suallarını cavablandırıb. Prezident İlham Əliyev Zəngəzur dəhlizi ilə bağlı bildirib ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyannamədə öz əksini tapıb: "Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir. Baxmayaraq ki, bir ildən çox vaxt ərzində irəliləmək asan olmayıb, bu mərhələdə biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvan Muxtar Respublikasına dəmir yolu əlaqəsinin tikintisi ilə bağlı razılıq, həmçinin magistral yol inşasına dair razılıq əldə etmişik. Lakin magistral yolun dəqiq marşrutu hələ ki, müəyyən olunmayıb. Bu, gələcək müzakirələrin mövzusudur və biz bunu bu axşam cənab Şarl Mişelin ev sahibliyi edəcəyi üçtərəfli görüşdə mütləq müzakirə edəcəyik.

Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, o, Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Beləliklə, bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması.

Bağlılığa gəlincə, regional nəqliyyat əlaqələrinin inteqrasiyası həqiqətən də region üçün böyük imkandır. Çünki Zəngəzur dəhlizi təkcə bizim Naxçıvan Muxtar Respublikasına çıxış əldə etməyimiz üçün deyil, həm də Ermənistanın Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi üçündür. Bununla, həmçinin Ermənistan da Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi əldə edir. Ermənistan Azərbaycan ərazisindən Rusiya ilə dəmir yolu əlaqəsi əldə edir. Bu gün onların belə bir dəmir yolu əlaqəsi yoxdur. Bu, regionda həqiqətən müsbət ab-hava yarada bilər və bu, hər kəsin xeyrinə olacaqdır. Hesab edirəm ki, bu imkanların düzgün dəyərləndirilməsi dinc gələcəyimizin planlaşdırılması baxımından olduqca vacibdir.

Bir daha qeyd edirəm, biz hazırıq. Biz artıq bir neçə dəfə ictimai şəkildə bəyanatlar vermişik ki, biz düşmənçilik səhifəsini çevirərək sülh sazişi üzərində çalışmaq istəyirik. Cənab Paşinyan və cənab Mişel ilə keçiriləcək görüş bir çox məsələlərə aydınlıq gətirəcəkdir."

# “Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir”




## Prezident İlham Əliyev
### Brüsseldə Şimali Atlantika Şurasının iclasında iştirak edib

**Dekabrın 14-də Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclası keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.**

İclasda Azərbaycan-NATO əməkdaşlığı və praktiki müstəvidə əməkdaşlığın inkişafı, Alyansın Əfqanıstanda keçirilən ”Qətiyyətli dəstək” missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesi və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələləri, həmçinin Azərbaycanın Avropanın enerji təchizatında rolu, regional proseslər barədə ətraflı fikir mübadiləsi aparılıb.

NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olunub. Bu mövqenin NATO-nun Sammit sənədlərində də dəfələrlə təsbit olunduğu qeyd edilib. NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın ”Qətiyyətli dəstək” missiyasındakı rolu xüsusi vurğulanıb. Azərbaycan hərbçilərinin Kabul hava limanı vasitəsilə 120 mindən çox mülki şəxsin təxliyəsində oynadığı rol NATO rəsmiləri tərəfindən xüsusi qeyd edilib. Azərbaycanın 2002-ci ildən 2021-ci il avqustun 27-dək bu əməliyyatda iştirak etdiyi və Əfqanıstanı ən son tərk edən ölkələrdən biri olduğu bildirilib.

İclasda, həmçinin Azərbaycan və NATO silahlı qüvvələri arasında operativ hərbi uzlaşma məsələsinin artırılması da qeyd olunub. Tədbir çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb və üzv dövlətlərin nümayəndələri tərəfindən verilən suallar cavablandırılıb.

Prezident İlham Əliyev Azərbaycanın regionda oynadığı rol, xüsusilə Vətən müharibəsinin başa çatmasından sonra bölgədə yaranmış yeni geosiyasi vəziyyət, Azərbaycanın Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olması, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə hazırlıq kimi məsələlər haqqında ətraflı məlumat verib.

Dövlətimizin başçısı qeyd edib ki, NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Həmçinin Alyansın 4 ölkəsinin, o cümlədən Türkiyənin Azərbaycandan qaz idxal etdiyi və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğu diqqətə çatdırılıb. Azərbaycanın enerji təchizatı sahəsində etibarlı tərəfdaş olduğu, alternativ mənbə və alternativ xətt üzrə Avropanın enerji təhlükəsizliyinə töhfəsini verdiyi qeyd edilib.



# Brüsseldə birgə görüş olub

Dekabrın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə nahar əsnasında birgə görüşü keçirilib.

# Brüsseldə Prezident İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti arasında görüş olub

Dünən Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş olub. Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu. Şarl Mişelin Azərbaycan Respublikasına səfəri xatırlandı. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulandı. Prezident İlham Əliyev bu məsələlərə verdiyi töhfəyə görə Şarl Mişelə təşəkkürünü bildirdi.

Söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı məsələlər müzakirə olundu. Eyni zamanda, kommunikasiyaların açılması, humanitar xarakterli məsələlər və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparıldı.



# Erməni diaspor təşkilatlarının Azərbaycan əleyhinə yönəlmiş ianə toplama kampaniyaları bundan sonra da ifşa olunacaq

Dekabrın 13-dən 17-dək Misirin Şarm Əl Şeyx şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına tərəf dövlətlərin Konfransının 9-cu sessiyası keçirilir. Sessiya çərçivəsində dekabrın 14-də Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə ”İanə toplanması fəaliyyətlərinin korrupsiya və digər cinayətkarlıq məqsədləri üçün suiistifadəsi” adlı xüsusi tədbir təşkil olunub.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, panel müzakirə formatında hibrid əsasda keçirilən tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) yüksək vəzifəli rəsmisi Tim Steele açılış nitqi ilə çıxış ediblər.

Baş prokuror Kamran Əliyev çıxışında qeyri-kommersiya təşkilatları və xeyriyyə fondları tərəfindən həyata keçirilən ianə toplanması fəaliyyətinin böhran vəziyyətlərində olan insanlara humanitar dəstək istiqamətində əhəmiyyətli rol oynadığını, bununla belə, bu cür fəaliyyətlərə məhdud nəzarətin yekunda onların bəzilərinin korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi kimi cinayətkarlıq məqsədləri üçün sui-istifadə edildiyini bildirib. Bu xüsusda, Baş prokuror, Azərbaycanın bu problemdən əziyyət çəkdiyini qeyd edərək, iştirakçıların diqqətini ötən il Vətən müharibəsi dövründə erməni diaspor təşkilatları tərəfindən təşkil edilmiş qanunsuz ianə toplanması kampaniyalarına diqqət yönəldib.

Tədbirdə BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin, Avropa Qeyri-Kommersiya Hüququ Mərkəzinin, Böyük Britaniyanın ”Greenacre” Qeyri Hökumət Təşkilatının və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin (MMX) mütəxəssislərinin təqdimatları dinlənilib və interaktiv müzakirələr aparılıb.

Çıxışçılar təqdimatlarında xeyriyyə fondları tərəfindən təşkil olunan ianə toplanması kampaniyalarından sui-istifadənin qarşısının alınması məqsədilə xüsusi qaydaların hazırlanmalı olduğunu, bəzi xeyriyyə təşkilatları tərəfindən cinayətkarlıq əməllərinin maliyyələşdirilməsi məqsədilə virtual valyutalardan və internetin nəzarətsiz seqmentindən istifadə edildiyini, bəzi bank və digər maliyyə qurumlarının bu cür fəaliyyətlərə vasitəçi olaraq alət edildiyi və digər məqamları xüsusi vurğulayıblar.

# Möhtəşəm layihələr doğma Qarabağımızda reallaşır



44 günlük Vətən müharibəsində qələbə qazanmış Azərbaycan işğaldan azad edilmiş torpaqlarda abadlıq-quruculuq işlərinə başlayıb. 30 ilə yaxın erməni işğalında qalan bu ərazilərdəki mövcud mənzərə vandalizmin ən yüksək nöqtəsini göstərir. Ermənilərin dağıtdığı ərazilər Azərbaycan dövlətinin vəsaiti, Prezidentin siyasi iradəsi ilə artıq bərpa edilir. Sahiblərinin əzəli öz doğma torpaqlarına qayıtması üçün bütün addımlar atılır. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng quruculuq layihələri, o cümlədən Şuşada aparılan bərpa və yenidənqurma işləri şəhərin tarixi simasının bərpa edilməsi məqsədilə, onun orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Artıq müvafiq dövlət qurumu da yaradılıb və bu işlərin hamısı koordinasiya şəklində aparılır və azad edilmiş bölgələrin kənd təsərrüfatı, turizm potensialının dirçəlməsi, yeni infrastrukturun yaradılması məqsədi ilə genişmiqyaslı layihələri reallaşır.

Heydər Əliyev Fond tərəfindən həyata keçirilən layihələr də Qarabağın maddi-mədəni irsinin bir parçası olan dini abidələrimizin bərpası baxımından təqdirəlayiqdir. Bu günə qədər ölkəmizdə Heydər Əliyev Fondu tərəfindən onlarla dini abidə, məscid və ziyarətgah bərpa edilərək, xalqımızın ixtiyarına verilib. Bu baxımdan, Qarabağın dini abidələrinin bərpa edilərək, yenidən vətəndaşların ixtiyarına verilməsi təqdirəlayiqdir. Qarabağdakı dini abidələrimizin bərpa edilməsi prosesinin başlanması Azərbaycan tərəfindən tarixi gerçəklik missiyasının, ədalətin bərpası deməkdir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tarixi müqəddəs layihəsi uğurla həyata keçirilir. Heydər Əliyev Fondunun işğaldan azad edilən ərazilərimizdəki dini abidələrimizi bərpa etməklə, tarixi irsimizə, dini abidələrə verilən böyük dəyərin, qiymətin təzahürüdür.

**Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərimizdə uğurlu layihələr icra edir**





Bildiyimiz kimi, ermənilər Ağdam məscidində, Şuşadakı Yuxarı Gövhər ağa məscidində və digər abidələr üzərində barbarlıq edərək, tarixi irsimizə qarşı vandallıq əməllərini həyata keçiriblər. Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparılıb. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq, bütün abidələri əhatə edir. Fond Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Bölgədə sürətlə aparılan quruculuq işlərinə töhfə vermək məqsədilə yeni dini və mədəniyyət obyektlərinin inşası da nəzərdə tutulur.

### "BİR ZAMANLAR ERMƏNİLƏRİN VƏHŞİCƏSİNƏ DAĞITDIĞI, TÖVLƏYƏ ÇEVİRDİYİ MÜQƏDDƏS DİNİ MƏKANLARIMIZ YENİDƏN DİRÇƏLƏCƏK VƏ BÜTÜN QARABAĞ ƏRAZİSİNDƏKİ MƏSCİDLƏRİMİZDƏ AZAN SƏSLƏRİ EŞİDİLƏCƏK, DUALAR OXUNACAQDIR"

Ötən müddət ərzində Fond artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırıb. Bu ilin avqust ayında Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşıb və kompleks istifadəyə verilib. Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli Fondun dəstəyi ilə yenidən qurularaq, Şuşa şəhərində ucaldılıb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bildirdiyi kimi: "Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!"

### HEYDƏR ƏLİYEV FONDU İŞĞALDAN AZAD EDİLMİŞ ŞUŞA ŞƏHƏRİNDƏ DAHA BİR LAYİHƏNİN İCRASINA BAŞLAYIB

Yeri gəlmişkən bildirək ki, Heydər Əliyev Fondu işğaldan azad edilmiş Şuşa şəhərində daha bir layihənin icrasına başlayıb. Hazırda şəhərdə Yaradıcılıq Mərkəzinin, Rəsm və Xalçaçılıq qalereyalarının təmir-bərpa işləri həyata keçirilir. Təbii ki, Şuşanın tarixi-mədəni irsinə qayğı istiqamətində bərpasına başlanan abidələr bununla yekunlaşmır. Şuşa abidələrinin bərpasına dövlət qayğısı və nəzarəti daim gündəmdədir. Yaxın vaxtlarda Şuşanın bütün tarixi, mədəni və dini abidələri yüksək səviyyədə bərpa edilib, öz əvvəlki görkəminə qaytarılacaq. Bu gün bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər də cəlb edilib. Xatırladaq ki, Heydər Əliyev Fondu ötən illər ərazində dünyanın müxtəlif ölkələrində - Bolqarıstan, Vatikan və digər ölkələrdə tarixi-dini abidələrin bərpasında iştirak edib. Ölkəmizin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası və s. ölkəmizin dini tolerantlığının nümunəsidir. Azərbaycanın həyata keçirdiyi layihələr sırasında Azərbaycan Prezidentinin yardımı sayəsində Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidini də vurğulamaq yerinə düşər. Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Bütün bunlarla yanaşı, Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib. Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq, yararsız hala salınıb. Əslində, ermənilərin etdikləri yalnız Azərbaycana qarşı yönəlməyib. Bu, bəşər mədəniyyətinə qarşı vəhşilik və təxribatdır.

Tolerant ölkə olan Azərbaycanda bütün dini abidələr qorunub. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda olan mühitin təzahürüdür. Bütün bunlarla yanaşı, Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bundan əlavə, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm Ana alban kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib.

Bu günə qədər ölkə daxilində, eləcə də onun hüdudlarından kənarda heydər Əliyev Fondu tərəfindən reallaşan layihələr öz töhfəsini verib. Bu gün isə 30 ilə yaxın həsrətlə gözlədiyimiz işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri, bərpa işləri aparılır.

***Zümrüd BAYRAMOVA***

# YAP Mərkəzi Aparatında

## "Vətəndaş mövqeyi: fərdi və ictimai məsuliyyət" mövzusunda konfrans keçirilib

**Dekabrın 14-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının və Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Vətəndaş mövqeyi: fərdi və ictimai məsuliyyət" mövzusunda konfrans keçirilib.**

Tədbiri giriş sözü ilə açan YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə konfransın aktual mövzuya həsr olunduğunu bildirib. O qeyd edib ki, hər bir cəmiyyətdə fərdi və ictimai məsuliyyət mühüm amildir.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək Azərbaycan gənclərinin yüksək vətən-






daşlıq mövqeyinə uyğun formalaşdığını deyib. Onun sözlərinə görə, buna nümunə olaraq 44 günlük Vətən müharibəsini göstərmək olar. Belə ki, gənclərimiz əsl vətəndaş mövqeyindən çıxış edərək torpaqlarımızın işğaldan azad edilməsin-





də fəal iştirak etdilər.

Konfransda YAP Veteranlar Şurasının üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Şahlar Əsgərov məruzə ilə çıxış edib. Mövzunu elmi-nəzəri təhlillərlə izah



edən Ş.Əsgərov bildirib ki, vətəndaş mövqeyinə təsir edən amillər çoxdur: "Buraya siyasi, iqtisadi, milli-mənəvi amilləri aid etmək olar. Amma əsas amil təhsil və tərbiyədir. Ona görə də, gənclərimiz milli-mənəvi dəyərlərimizə sadiq olmalı, eləcə də yüksək biliklərə yiyələnməlidirlər".

O qeyd edib ki, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin vətəndaş mövqeyi hər kəs üçün nümunə olmalıdır. Həmçinin milli və ictimai maraqlarımızın qorunması ilə bağlı gənclərə tövsiyələrini də verib.

YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov çıxış edərək vətəndaşlıq mövqeyini yüksək keyfiyyət kimi dəyərləndirib. Onun fikrincə, hər bir vətəndaş baş verən proses-



lərə öz mövqeyini bildirməlidir. M.Mərdanov 1990-cı illərin əvvəllərində respublikada baş verən mürəkkəb proseslərlə bağlı öz vətəndaş mövqeyini cəsarətlə nümayiş etdirən insanların, ziyalıların fəaliyyətinin gənclərə nümunə olduğunu söyləyib.

Tədbirdə çıxış edən YAP Mər-



kəzi Aparatının şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov isə bildirib ki, hazırda



dünyada və regionmuzda ciddi proseslər baş verir. Belə bir şəraitdə Azərbaycanın milli maraqlarının müdafiə edilməsi hər bir vətəndaş üçün əsas vəzifə olmalıdır. Bu prosesdə vətəndaş cəmiyyəti və siyasi partiyalar da ön sıralarda getmə-



lidir. Ölkəmizdə 3700-dən çox qeyri-hökumət təşkilatının fəaliyyət göstərdiyini deyən R.Qonaqovun sözlərinə görə, QHT-lər öz fəaliy-



yətlərində milli maraqlarımızı öndə tuturlar. O cümlədən, siyasi partiyalar da daim dövlət və xalq amilinə önəm verməlidir. R.Qonaqov bu baxımdan Yeni Azərbaycan Partiyasının fəaliyyətinin digər siyasi partiyalar üçün nümunə olduğunu diqqətə çatdırıb.

YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova isə vətəndaş mövqeyinin ailə münasibətləri əsasında formalaşdığını söyləyib.

Konfransda həmçinin, YAP Ve-



teranlar Şurasının üzvləri Adilə Abasova, Tahir Məmmədov, Sudeyf İmamverdiyev və 91-lərdən biri Munis Bayramov çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Azərbaycanda dövlət maraqları, ictimai və milli maraqların təmin olunması prioritetdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Bizim siyasətimi-



zin təməlində dövlət maraqları, xalqla iqtidar arasında birlik dayanır" fikirləri qeyd edilən məqamların məntiqi izahı kimi dəyərləndirilə bilər. Natiqlər çıxışlarında gənclərə daim vətəndaş mövqeyindən çıxış etməyi, milli maraqlarımızı qorumağı tövsiyə ediblər.

Daha sonra konfrans diskussiya şəraitində davam edib, gəncləri maraqlandıran suallar da cavablandırılıb.



# "Media haqqında"

## yeni qanun layihəsi I oxunuşda qəbul edilib

**Milli Məclisin dünən keçirilən plenar iclasında "Media haqqında" yeni qanun layihəsi I oxunuşda müzakirəyə çıxarılıb. SİA-nın xəbərinə görə, layihə müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.**

Yeni qanunda qeyd edilib ki, Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi veriləcək. Jurnalist vəsiqəsinin forması, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Jurnalist vəsiqəsinin etibarlılıq müddəti 3 (üç) ildir. Jurnalist vəsiqənin etibarlılıq müddəti bitdiyi gündən ən geci 3 (üç) iş günü müddətində həmin vəsiqəni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təhvil verməklə yenidən jurnalist vəsiqəsinin alınması üçün müraciət etmək hüququna malikdir.

Qanunda jurnalist vəsiqəsi verilmiş şəxslərin aşağıdakı imtiyazları da müəyyənləşib:

1. jurnalist fəaliyyətinin həyata keçirilməsi ilə bağlı dövlət və bələdiyyə mülkiyyətində olan muzeylərə, qalereyalara, habelə mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil olmaq;
2. dövlət orqanları (qurumları), müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları tərəfindən akkreditasiya olunmaq;
3. əhəmiyyətli tədbirlərə dair kütləvi informasiyanın axtarılması, əldə olunması, ötürülməsi, istehsalı və yayımı məqsədilə həmin tədbirlərin keçirildiyi məkanlara bu qanunun 72-ci maddəsinə uyğun olaraq akkreditasiya olunduğu halda daxil olmaq;
4. bu qanunun 76.1.2-76.1.5-ci maddələrində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan yararlanmaq.

Bundan əlavə, çap mediası və onlayn media subyektinin təsis edilməsi ilə bağlı qayda müəyyənləşib.Layihəyə əsasən, çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından (qurumlarından) icazə tələb olunmur.Çap mediası və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün hüquqi və ya fiziki şəxs müvafiq olaraq çap mediası məhsulunun istehsalından və materialın yayımlanmasından 7 (yeddi) gün əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rəsmi müraciət etməlidir.

Dini məzmunlu çap mediası və onlayn media subyektinin təsis edilməsi ilə bağlı müraciətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi əlavə olunur. Çap mediası və onlayn media subyektlərinin adında Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının), beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının adlarından (özlərinin təsis etdikləri media subyektləri istisna olmaqla), habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadəyə yol verilmir.

Yeni qanunda həmçinin media subyektinin digər media subyektinin informasiyasından necə istifadə edəcəyi məlum olub. Belə ki, qeyd edilib ki, media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə bilər.

Bundan əlavə, abunəlik və ya müqavilə olmadıqda media subyekti digər media subyektinin hər bir informasiyasının yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər. Bu hallar dövlət orqanları (qurumları) tərəfindən yayılan rəsmi məlumatlara (press-relizlərə) və informasiya agentliklərinin informasiyasından istifadə hallarına şamil edilmir.

Layihədə həmçinin audiovizual media subyektləri aşağıdakılardır:

Yerüstü yayımçı:
1. ümumölkə yerüstü televiziya yayımçısı;
2. regional yerüstü televiziya yayımçısı;
3. ümumölkə yerüstü radio yayımçısı;
4. regional yerüstü radio yayımçısı;

Platforma yayımçısı:
1. peyk yayımı həyata keçirən platforma yayımçısı;
2. peyk yayımı həyata keçirməyən platforma yayımçısı;

Platforma operatoru:
1. sadə platforma operatoru;
2. universal platforma operatoru;
4. multipleks operatoru;
5. infrastruktur operatoru;
6. sifarişli yayım xidməti provayderi.

Qanunda xarici media nümayəndələrinin Azərbaycan ərazisində fəaliyyət göstərməsi qaydası açıqlanıb. Layihəyə əsasən, Azərbaycanda akkreditasiya olunmuş xarici jurnalistlərin və digər xarici media nümayəndələrinin hüquqi statusu və peşə fəaliyyəti Azərbaycan Respublikasının normativ hüquqi aktları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Azərbaycanda xarici media subyektlərinin filial və nümayəndəlikləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda açılır.

Xarici jurnalistlərin Azərbaycanda akkreditasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir. Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycanda da eyni məhdudiyyətlər qoyula bilər.

# Azərbaycanın

## hüquqi müstəvidə qələbəsi

**Azərbaycanın iddiası əsasında BMT-nin Haaqa Beynəlxalq Məhkəməsinin çıxardığı qərarda haqlı olaraq, Ermənistan azərbaycanlılara qarşı milli və etnik mənşəyinə görə ayrı-seçkilik törətməkdə ittiham olunur. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın pozulması ilə əlaqədar Azərbaycanın Ermənistana qarşı iddiası üzrə sözügedən beynəlxalq məhkəmənin qərarını açıqlanması, Ermənistandan azərbaycanlılara qarşı irqi ədavətin qızışdırılmasının qarşısını almaq üçün tədbirlər görməyi tələb etməsi ölkəmizin növbəti uğuru, qələbəsi olaraq xarakterizə edilir.**

Təbii ki, BMT-nin Haaqa Beynəlxalq Məhkəməsinin Ermənistan barədə məlum qərarı sıradan bir qərar deyil və xüsusi əhəmiyyət kəsb edir. Ermənistanın irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında konvensiyanı pozması ittihamı ilə rəsmi Bakının İrəvana qarşı iddiası üzrə qərarı elan edən hakimin, "Ermənistan irqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiya üzrə üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, öz ərazisindəki təşkilatlar və şəxslər də daxil olmaqla, azərbaycanlılara qarşı irqi nifrətin qızışdırılması və təhrikinin qarşısını almaq üçün bütün zəruri tədbirləri görməlidir", ifadəsi sözün əsl mənasında haqqın, ədalətin bərpası, bizim haqlı olduğumuzin etirafıdır.



Ermənistanın Azərbaycana qarşı "hərbi əsirlərin dərhal qaytarılması ilə bağlı" əsas iddiasını BMT-nin Beynəlxalq Məhkəməsinin təmin etməməsi də öz növbəsində diqqət çəkən məqamdır. Ələlxüsus, Ermənistan tərəfinin "Hərbi Qənimətlər Parkının bağlanması" və "Azərbaycan tərəfindən hərbi cinayətlərin araşdırılması" tələbinin də təmin edilməməsi ədalətin təntənəsidir. Bəli, sözügedən məhkəmənin, "Ermənistan bu məsələlərlə bağlı əsaslandırılmış sübutlar təqdim edə bilməyib" fikirləri tam yerinə düşür, çünki həqiqətən də ermənilərdə bununla bağlı arqumentlər yoxdur və ola da bilməz. Əksinə, bizim əlimizdə yetərincə arqumentlər, faktlar var ki, bunu artıq bütün dünya çox yaxşı bilir. Yaxşı bilir ki, Xocalı faciəsi də, işğal zamanı törətdikləri digər qırğınlar da, azərbaycanlıları öz ata-baba yurdlarından qovmaları da məhz Ermənistanın azərbaycanlılara qarşı milli və etnik mənşəyinə görə ayrı-seçkilik törətməsi faktlarıdır, hansıki bunu təkzib etmək mümkünsüzdür.

Qeyd edək ki, 1945-ci ildə yaradılan, 9 il müddətinə seçilən 15 hakimdən ibarət Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsinin məhkəmə qərarları məcburidir və bu barədə şikayət verilmir. Bu isə ondan xəbər verir ki, Ermənistan tərəfi bu qərarların icrasını yerinə yetirmək məcburiyyətindədir və heç bir başqa çıxış yolu yoxdur. Nə şikayət edə bilər, nə də ki, hətta narazılığının belə artıq faydası yoxdur. Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, BMT Beynəlxalq Məhkəməsi bu qərarları Azərbaycanın Ermənistana və Ermənistanın Azərbaycana qarşı iddiası üzrə oktyabrın 14-dən 19-dək olan Məhkəmə dinləmələrindən sonra verib və bu qərarlar həm siyasi, həm də hüquqi baxımdan bizim üçün olduqca faydalıdır.

Birinci növbədə onu bilmək və yadda saxlamaq lazımdır ki, məhz ermənilər tərəfindən irəli sürülən ittihamların uyğunsuzluğunun BMT-nin Haaqa Beynəlxalq Məhkəməsi tərəfindən faktiki və hüquqi şəkildə sübuta yetirilməsi hesabına Ermənitsanın Azərbaycana qarşı vəsatətləri rədd edildi. Bu isə onu deməyə əsas verir ki, Ermənistanın artıq bundan sonra milli və etnik mənşəyinə görə ayrı-seçkilik törətməsi ittihamı ilə Azərbaycan əleyhinə səsləndirə biləcəkləri istənilən ittiham sözdən başqa bir mahiyyət kəsb edə bilməz. Yəni, bütün dünya şahidi oldu ki, Ermənistan tərəfi əsassız iddialarla çıxış edir, ittihamlarının da uyğunsuzluğu məhz bu boyda beynəlxalq məhkəmə tərəfindən təsdiq edildi. Belə olan halda, ermənilərin iddiaları ittiham deyil, şərböhtan kimi qiymətləndirilə bilər. Bir növ, BMT-nin Haaqa Beynəlxalq Məhkəməsi real vəziyyəti qanuni şəkildə ortaya qoydu ki, bunu artıq bütün dünya ictimaiyyəti müşahidə edir və ermənilərin bundan sonra dedikləri üzaq başı böhtan olaraq nəzərə alınar.

Ən çox diqqəti çəkən məqamlardan biri də, Azərbaycana qarşı hər fürsət olduğu halda "saxlanılan erməni əsilli şəxslərin dərhal azad edilməsi" tələbi barədə Ermənistanın qaldırdığı vəsatətin Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsində rədd edilməsi, Azərbaycana qarşı istifadə olunan bu iddianı da sıradan çıxaran qanuni, legitim cavabdır. Bilirik ki, Ermənistan tərəfi özünün hərbi əsir adlandırdığı, əslində isə, bizim haqlı olaraq terrorçu və separatçı kimi qiymətləndirdiyimiz erməni əsillilər barədə hər dəfə imkan düşdüyü təqdirdə bəyan edirdilər və bundan istifadə etməyə cəhd edirdilər. Vurğulamaq yerinə düşərdi ki, artıq ermənilərin bu cəhdinin də mənası yoxdur və bundan sonra belə bir tələb, hətta iddia belə yalnız gülünc səslənə bilər. Artıq Lüksenburq kimi hansısa bir dövlətin bu iddianı əsas sayaraq, ölkəmizə qarşı kampaniyalar aparması da gülünc bir təəssürat bağışlaya bilər və bunun mənasız olduğu hüquqi baxımdan təsdiqləndi, deməkdə haqlıyıq. Yeri gəlmişkən qeyd edək ki, xüsusilə bunun hüquqi aspektlərə yanaşı həm də siyasi aspektləri, faydası danılmazdır.

Azərbaycan öz haqlı tələblərini hüquqi müstəvidə, diplomatik qaydada irəli sürür və bu, təkcə Ermənistanın irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın qaydalarının pozulması ilə bağlı deyil. Ərazilərimizdə Terrorçuluğun Maliyyələşdirilməsi və digər məsələlərlə əlaqədar beynəlxalq konvesniyaların pozulması faktı ilə bağlı da Azərbaycan hüquqi təqib proseslərini davam etdirir. Etdiyi qanunsuz əməllərin heç birinə görə Ermənistan tərəfi cəzasız qalmayacaq. Nəzərə alsaq ki, son illərdə qlobal səviyyədə beynəlxalq siyasi və hüquqi instansiyaların nüfuzdan düşməsi və etibarlılığının şübhə altına alınması prosesinin fonunda ən azından BMT-nin öz reputasiyasını qoruması xatirinə də olsa Azərbaycan və Ermənistanın müraciətlərinə vicdanlı, qərəzsiz və diqqətlə yanaşması, nizamnamə ilə ona həvalə edilmiş missiyanı maksimum vicdanla, operativ və səmərəli yerinə yetirməsi müşahidə olunur, deməli, bundan sonra da hədəflərimizə çatacağıq. Hətta, belə davam edəcəyi təqdirdə sözügedən məhkəmədəki işlərinin sırasına daxil olan beynəlxalq məsuliyyət və zərərə görə kompensasiya məsələsi də öz ədalətli həllini tapacağı şübhə doğurmur. Xüsusilə qeyd edək ki, BMT-nin Haaqa Beynəlxalq Məhkəməsinin qərarı haqqında informasiyanın geniş şəkildə, özü də sürətlə yayılması ondan xəbər verir ki, növbəti məsələlər barədə də ədalətli şəkildə qərarlar veriləcəyi gözlənilndir və bu da öz növbəsində qələbələrimizin, uğurlarımızın davamlı olacağı deməkdir.

***İnam Hacıyev***

# Atmosferin ekoloji problemləri və onların həll yolları

**Bilinən, həyat olan tək planet yerdir. Biz isə hər zaman belə davam edəcəkmiş kimi son sürətlə məhv etmək yolundayıq. Qırılan meşələr, öldürülən canlılar, tükədilən su ehtiyatları, oksigen qıtlığı, qlobal istiləşmə, buzlaqların əriməsi, havanın çirklənməsi və s. uzana bilən siyahımız var. Bunlar bizim "şah əsər"imizdir. Yetəri qədər məhv edirik. Bəs bərpa edirik?**

Bunu bərpa etməyin yeganə yolu ağac əkmək və meşə zolağı çəkmək üçün edilən təşəbbüslərdir. Düzdür, ölkəmizdə həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də digər qurumlar tərəfindən müxtəlif ağacəkmə aksiyaları keçirilir. Lakin bu, qlobal şəkildə hava çirklənməsinin qarşısını ala bilməz. Bu edilən işlər yalnız dünyanın havasının çirklənməsi probleminin qarşısını almağa çox kiçik kömək edir.

Ekoloji monitorinqlər göstərir ki, karantin müddətində əksər zavodların fəaliyyətinin dayanması, yollarda avtomobillərin sayının azalması havanın təmizlənməsinə xeyli təsir göstərib.



### Havanın çirklənməsinin qarşısını necə almaq olar?

Havanın çirklənməsi, suyun çirklənməsi, ətraf mühitin çirklənməsi, torpağın çirklənməsi, dənizin çirklənməsi gələcəkdə mühüm problemləri özü ilə bərabər gətirə bilər.

Qlobal dünyada "Çirklənmənin" bu qədər artması acınacaqlı deyilmi? Təəssüflər olsun ki, elə bir dünyada yaşayırıq ki, havanın çirklənməsinin qarşısını almaq üçün nə etməliyik sualının əksi olaraq, havanın çirklənməsinə zəmin yaradırıq. Bilmədən etdiyimiz səhvlər havanın çirklənməsinin səbəb ola bilər.

Havanın çirklənməsinin səbəbləri bunlardır:

* Keyfiyyətsiz yanacağın istifadəsi
* Zərərli qazlar
* Müvafiq şəraitdə soba və ya qızdırıcı kimi qızdırıcıların yandırılmaması.
* Əlverişsiz hava şəraiti
* Təbiətə zərərli kosmetik vasitələrdən istifadə
* Sənaye obyektlərinin düzgün yerləşdirilməməsi nəticəsində havanın çirklənməsi
* Nəqliyyatın yaratdığı havanın çirklənməsi



### Havanın çirklənməsi necə baş verir?

Havanın çirklənməsi: Havada bərk, maye və ya qaz halında olan yad maddələr insan sağlamlığına, yaşayış həyatına və üstəlik, bütün ekoloji tarazlığa zərər verəcək sıxlıqda olduqda baş verir. Hava təbəqəsi istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir və yer üzündəki bütün canlıların həyatı üçün ciddi təhlükə yaradır. Hava 78% azot, 21% oksigen və 1% müxtəlif qazlardan və su buxarının tərkibindən ibarətdir. Atmosferin çirklənməsi o zaman baş verir ki, havada zərərli maddələr toplanıb bu tərkibi korlayır. Sürətlə artan əhali, yanlış urbanizasiya, pestisidlərdən istifadənin və istifadə olunan kimyəvi maddələrin görünən şəkildə artması dedikdə havanın çirklənməsinin səbəbdir. Nəqliyyat vasitələrinin işlənmiş qazlarından tutmuş zavod bacalarından çıxan tüstüyə qədər nəqliyyatda geniş spektr var. Keyfiyyətli və düzgün yanacağın istifadəsinin vacibliyini bilirik, bəs digərləri necə? Havanın çirklənməsinin qarşısının alınması istiqamətində görülən işlərə fərdi olaraq necə töhfə verə bilərik? Burada bu sualın cavabını bir neçə məqalədə topladıq. Başlayaq dünyanı xilas edəcəm fikrindən çıxıb dünyamızı qoruyacağam məntiqindən yapışaq, qalanı axacaq. Bəli, indi gəlin görək havanın çirklənməsinin qarşısını necə ala bilərik...?



Şübhəsiz ki, havanın çirklənməsinin qarşısını almaq üçün nə etməli və fərd olaraq necə davranmalı olduğumuzu bir neçə maddəyə sığdırmaq çətindir. Bununla belə, düşünürük ki, bizə lazım olan ilk şey ekoloji maarifləndirmədir.

* Şüurlu fərdlər yetişdirməklə başlayaq. Öz ekoloji şüurumuz yarandıqdan sonra bunları uşaqlarımıza aşılamaqla əhəmiyyətli bir qazanc əldə edirik. Ekoloji şüurla böyüyən uşaqlar zəncir kimi ekoloji tarazlığa gözəllik halqaları qatırlar. Ekoloji şüur dünyamızda "gözəl gələcəyin" qurulması üçün davamlı bir kərpic kimi xidmət edəcəkdir.

* Havanın çirklənməsinə səbəblərdən biri də evləri qızdırmaq üçün istifadə etdiyimiz qızdırıcılardır. Məsələn, siz kömürlə qızdırırsınız? İstifadə etdiyiniz kömürlərin aşağı kalorili olmasına diqqət edərək başlaya bilərsiniz.

* Əgər sobalı evdə yaşayırsınızsa, evinizdə mütəmadi olaraq baca təmizləyin. Bu, təkcə təbiətə deyil, həm də özünüzə sərmayədir.

* Şəxsi nəqliyyat vasitələrinin istifadəsini azaldın. Biz bilirik ki, nəqliyyat xüsusilə, böyük şəhərlərdə yaşayanlar üçün ciddi problemdir. Təbii ki, əgər bacarsanız, təbii ki, şəxsi nəqliyyat vasitələrinin istifadəsini minimuma endirməlisiniz.

Bəli, biz inkişaf edən sənaye ilə sürət qazanırıq. Ancaq eyni sürəti havanın çirklənməsi ilə bağlı etsək, pis olmaz. Məsələn, sənaye məskənlərini yaşayış məntəqələrindən mümkün qədər uzaqlaşdırmaqla başlaya bilərik.

* Yaşıl sahələri artırmaq lazımdır. Havanın çirklənməsi ilə mübarizədə ən mühüm silahımız yaşıl məkanlarımızdır. Biz onları artırmaq üçün əlimizdən gələni edə bilərik. Fidan əkək, ağacları kəsməyək, yaşıllıqların artırılmasına əlimizdən gələni edək.

* Damın izolyasiyasına və mənzilin bacasının təmizlənməsinə əlavə diqqət yetirin. Məsələn, istilik probleminin qarşısını almaq üçün binanın izolyasiyası da bir seçimdir.

* Qızdırıcınıza müntəzəm texniki qulluq göstərin. Bu baxımlar nəinki qızdırıcınızdakı havanı alıb sizi daha yaxşı isitəcək, həm də havanın çirklənməsi baxımından yarana biləcək problemlərin qarşısını alacaq. Mövzu ilə əlaqədar sosioloq Lalə Mehranlı fikirlərini bildirib: "Ətraf mühitin qorunması komanda işi olmalıdır, bu elə bir məsələdir ki, mənim-sənin dərdi konteksindən çox uzaqdır".

**Sosioloq fikirlərinə əlavə edərək bildirib ki, hamımız eyni gəmidəyik və bu gəmi getdikcə daha çox suya qərq olur:** "Dünyanın içməli su ehtiyatı azalır, tükənməz dediyi enerji ehtiyatları tükənir, yaşıllıqlar, meşələr məhv edilir, nəsli kəsilməkdə olan nadir canlılar qətl edilir, təbiətin balansını tarazlayan vəhşi heyvanlar ovlanır, okeanın dibinədək zibillik baş alıb gedir. Təsəvvür edin, okeanın neçə min metr dərinliyində yaşayan nadir coretta tısbağaları plastik tullantıları yeyir, zəhərlənir. Təhlükənin dəhşətini təsəvvür edə bilirsinizmi? Azərbaycanın meşə fondunun, ümumiyyətlə, yaşıllığın əksər ölkələrlə müqayisədə aşağı olması bizə bir işarə olmalıdır, meşələr qorunmalıdır. Çirkləndirdiyimiz təbiət bizə çirkli su, çirkli qida verəcək, etdiyimiz pislik dolayısı ilə özümüzə yönələcək. Ölkəmizdə adambaşına düşən içməli su ehtiyatlarının bir çox ölkələrdən daha az olması narahatlıq yaratmalıdır. Evdə, həyətdə, iaşə obyektlərində suya qənaəti öyrənməliyik, avtomobilimizi su şırnağı ilə yox, vedrədəki su ilə yumağı öyrənməliyik. Yediyimiz qidanın qabını, paketini təbiətə atmamağı, dənizin zibilxana olmadığını öyrənməliyik. Çirkli atmosfer çirkli hava deməkdir, çirkli hava xəstəlik və problem deməkdir. Çirkli evdə oturmağı sevmədiyimiz kimi, çirkli atmosferdə və çirkli təbiətdə nəfəs almağı sevməməliyik. Ətraf mühitin mühafizəsi birbaşa bizim sağlamlığımız deməkdir. Yəni, nə əkiriksə, onu da biçirik".



*Qönçə Quliyeva*

# Fransa ermənilərі

## faşist bayrağı altında



**Fransada qarşıdan gələn prezident seçkilərində millətçi siyasətçinin qalib gəlməsi ermənilər üçün əlavə problemlər yaradacaq və ərəb dünyası ilə də münasibətləri korlayacaq. Bu barədə erməni mətbuatında analitiklər tez-tez çıxışlar edir, geniş müzakirələr aparırlar.**

Fransa prezidentliyinə namizədlərin artıq irəli sürülmə mərhələsində Ermənistana, ”erməni soyqırımı”na, Qarabağ məsələsinə və burada yaşayan ermənilərin ”öz müqəddəratını təyinetmə hüququ”na münasibət bildirmələri köhnə ənənəyə çevrilib. Fransa ermənilərinin rəğbətini qazanmaq, onların səsini oğurlamaq üçün namizədlər niyə yarışır, niyə ölüm-dirim savaşına çıxır. Bu, səbəbsiz deyil. Bəri başdan deyək ki, nəinki Fransada, o cümlədən dünyanın əksər ölkəsində keçirilən seçkilərdə səsvermə hüququ olan yalnız ermənilər səslərini hərraca çıxarırlar. Bu hərracın motivi də yalnız siyasidir. Yəni Ermənistanı, erməniləri, qondarma ”erməni soyqırımı”nı tanı, səsim peşkəşdir. Fransada sayı 750 mindən bir milyona qədər olan ermənilər Ermənistanda yaşayan ermənilər kimi deyillər, onlar siyasi al-verin gedişlərini çox gözəl bilirlər.

2022-ci ilin aprelində Fransada prezident seçkiləri keçiriləcək. Və artıq namizədlərin irəli sürülməsi prosesinə başlanıb. Belə görünür ki, ermənilər indiki şəraitdə yaxşılarda yaxşılıq axtarmaq istəmirlər. Hazırkı prezident Makronun Ermənistana yanaşmasında fərqlilik onu deməyə imkan verir ki, erməni icması növbəti seçkilərdə də ona hər cür dəstək verməyi düşünür. Amma yox, Fransadakı ermənilər sağlam düşüncənin əksinə getməyə qərar veriblər və prezidentliyə namizəd, 63 yaşlı yazıçı və jurnalist, əlcəzairli yəhudi əsilli Erik Zemmura bir sırada durmağı düşünürlər. Soruşmaq olar ki, burada nə var? Əsrlər boyu Fransa erməniləri bu ölkənin vətəndaşları olublar və prezidentliyə namizədlərdən hansına səs verəcəklərini yaxşı bilirlər. Seçim etdikləri namizədin şəxsiyyətində problemlər olmasaydı, bununla razılaşmaq olardı. Axı Zemmur ifrat sağçıların namizədidir. Yəni onun baxışları faşizmə yaxındır və faşistlərin fəaliyyətinə tam olaraq haqq qazandırır.






Məsələn, Zemmur müsəlman ölkələrindən gələn miqrantlara qarşı çıxır, islamofob və antisemit bəyanatları ilə seçilir və hətta bir neçə dəfə müsəlmanlara nifrəti qızışdırdığına görə cərimələnib. Bundan əlavə, o, əvvəllər ”erməni soyqırımı”nı inkar etmənin kriminallaşdırılmasının əleyhinə olsa da, sonradan erməni icması ilə dost olmağın daha sərfəli olduğunu düşünüb ritorikasında dəyişiklik edib. Yəni faşist baxışlı adi ultramillətçi. Ondan daha radikal, yalnız Hitler və Mussolininin pərəstişkarı Jan-Mari Le Pen ola bilər.

Ən təəccüblüsü isə qarşıdan gələn prezident seçkilərində iştirak edən Fransanın



erməni icmasının Zemmuru dəstəkləməsidir. Görünür, Fransa erməniləri Almaniyanın acınacaqlı təcrübəsini unudublar. Axı, ilk vaxtlar hətta alman yəhudiləri də nasistlərin hakimiyyətə gəlişini dəstəkləyib, Hitlerin güclü əli ilə nizam-intizamı bərpa edəcəyini, sabitliyi bərqərar edəcəyini gözləyirdilər. Əgər xatırlayırsınızsa Hitler hər şeyi qaydasına salandan sonra onu dəstəkləyən, hakimiyyəti qazanmaqda kömək edən yəhudilərə və ”aşağı irqin” digər xalqlarına Almaniyada artıq yer olmadığını bildirdi və ölkəni tərk etməyənlərə qarşı bəşəriyyətin ən ağır cinayətini - soyqırımını törətdi.

Doğrudanmı ermənilər başa düşə bilmirlər ki, Fransa prezidenti seçilərsə Zemmurun anti-immiqrasiya siyasətinin zərbəsi ilk növbədə hələ də bu ölkədə qeyri-titullu xalq kimi yaşayan erməni əsilli Fransa vətəndaşlarına, o cümlədən Rusiya və ABŞ-da olduğu kimi, ən çox Fransaya köçmək istəyən Ermənistan vətəndaşlarına dəyəcək. Bəs Zemmurun immiqrasiya siyasətini tətbiqindən sonra ermənilərə istisna hal kimi viza veriləcəkmi? Cavab isə yoxdur.

Bu günlərdə Fransanın erməni icmasının təşkilatçılığı və maddi dəstəyi ilə Zemmur Ermənistana səfər etdi. Ermənistan mətbuatı onun Ermənistana səfərini geniş şəkildə işıqlandırdı. Yazdılar ki, prezidentliyə namizəd Zemmur bizim böyük dostumuzdur və Fransa bundan sonra da Ermənistana hər cür köməklik göstərəcək. Zemmur da borclu qalmadı, Çiçernakaberddə ”soyqırımı” abidəsini ziyarət etdi, tvitterdə Ağrı dağına baxarkən çəkdirdiyi fotonu da paylaşdı. Fotoya ermənilərin xoşuna gələn altyazı verdi: ”Ermənistanla Türkiyə sərhədində, Ağrı dağının qarşısında. Mən ermənilərə demək istəyirəm ki, onlar əsrlər boyu necə bir müqavimət modeli olublar”.

Lakin bu gəlişigözəl sözlərə deyəsən ermənilər tez aldanıblar. Halbuki, Zemmur öz islamofob ritorikasında və siyasətində ermənilərdən və Ermənistandan ancaq alət kimi istifadə etdiyini hələlik ermənilərin az bir qismi anlayıb. Ona görə də ermənilərə sual verməyin vaxtı çatıb, bu faşist təbiətli adam Ermənistana və ermənilərə lazımdırmı? Zemmurun Fransada və xaricdə ərəblərlə hər hansı problemi ola bilər, lakin bu o demək deyil ki, onun fikirlərini bölüşməyə, hətta daha çox onun ərəblərə qarşı və İslamofob siyasətindən sonra ona əməl etməyə fransızlar, üstəlik Fransada yaşayan ermənilər borcludurlar.

Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri pisdir, amma eyni zamanda müsəlman ölkələri arasında İran, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Livan, Suriya ilə yaxşı münasibətləri var. Bu ölkələr, Rusiyanın əsas ”müttəfiqi”ndən və daha çox KTMT-dən fərqli olaraq Ermənistana həmişə hərtərəfli dəstək veriblər. Belə çıxır ki, ermənilərin müsəlman ölkələri ilə, o cümlədən ərəb ölkələri ilə əlaqələri faşist Zemmurun xatirinə qurban verilməlidir. Bunu isə Zemmurun Ermənistana səfərini pisləyən Fransa ermənilərinin müəyyən hissəsi başa düşür.

Makronun isə ermənilərin Zemmura rəğbətini və seçkilərdə verəcəkləri dəstəyi unudacağı heç inandırıcı görünmür. Makron qalib gəlsə onda ermənilərin müsibətli günləri başlayacaq.

### Bəs Erik Zemmur kimdir?

”Bird in Flight” nəşri Erik Zemmuru Fransanın Donald Trampı adlandırıb. Trampın fransız versiyası adlandırılan bu şəxs 1958-ci ildə Paris ətrafında anadan olub. Siyasətçinin valideynləri 1954-1962-ci illərdə Əlcəzairin Müstəqillik Müharibəsi zamanı Fransaya köçmüş bərbər yəhudiləridir. Atası feldşer, anası evdar qadın olub.

Erik iki dəfə Milli İdarəçilik Məktəbinə prezident Emmanuel Makron da daxil olmaqla, bir çox fransız siyasətçisinin məzun olduğu təhsil müəssisəsinə daxil olmağa çalışıb, lakin Zemmur buna müvəffəq olmayıb. Sonra Politexnik Tədqiqatlar İnstitutuna sənəd verib və jurnalist olub.

1990-cı illərin ortalarından bəri Zemmur onlarla siyasi və tarixi oçerklər yazıb. "Le Quotidien de Paris" və "Le Figaro" qəzetlərində işləyib, RTL radiostansiyasında şəxsi proqrama rəhbərlik edib, on il "Paris Premiere" kanalında tok-şou aparıcısı olub, həmçinin 2019-cu ildən hər gün sağçı CNews kanalında çıxış edib. Mediada işlədiyi müddətdə Zemmur polemikanı sevən, İslam və immiqrasiya, qadınların və LGBT insanların hüquqları ilə bağlı gurultulu bəyanatlardan çəkinməyən, siyasi düzgünlüyü tanımayan və ictimai qalmaqallardan qorxmayan təxribatçı jurnalist kimi şöhrət qazanıb.




Belə ki, o, CNews-da yüz minlərlə izləyicinin izlədiyi şouda miqrant övladlarını "quldur", "qatil" və "zorlayan" adlandırması nifrətin qızışdırılması kimi qəbul edilib. Ümumilikdə Zemmur on altı dəfə belə pozuntularda ittiham olunub. O, iki dəfə günahkar bilinib və cərimələnib, lakin əksər hallarda jurnalist söz azadlığı hüququnu müdafiə edə bilib. Hətta Zemmurun fikirlərini bölüşməyənlər də onun natiqlik istedadını və öz fikirlərini auditoriya qarşısında müdafiə etmək bacarığını qeyd edirlər.

Zemmur fransız sağçı siyasətçiləri Eduard Balladur və Jak Şirakın tərcümeyi-hallarını yazıb və 2006-cı ildə cəmiyyətin feminizasiyasını tənqid etdiyi və gender rollarının tarixdən kənar, universal qavrayışına qayıtmağa çağırdığı "Birinci Cins" kitabını nəşr etdirib. 2014-cü ildə o, ən çox satılan (500.000 nüsxədən çox satılan) "Fransız İntiharı" kitabını yazıb. Müəllif orada Fransa dövlətinin tənəzzülünün 1970-ci illərdən başladığını və bunun səbəbi kimi ənənəvi dəyərlərin, feminizmin, immiqrasiya və bərabərlik prinsiplərinin rədd edilməsi olduğunu iddia edir.

2021-ci ildə Zemmurun "Fransa hələ son sözü deməyib" adlı yeni əsəri işıq üzü görüb. Bu əsərdə o, İslama qarşı kəskin çıxış edir və onu Fransa mədəniyyəti və millətin gələcəyi üçün əsas təhlükə kimi təqdim edir. "The Guardian" yazır ki, kitabda Zemmur mümkün "irq müharibəsi" ilə bağlı xəbərdarlıq edir və ağdərili heteroseksual kişilərin etnik azlıqların və sözdə "gey lobbisi"nin təzyiqi altında olduğunu vurğulayır.

1980-ci illərin ortalarından etibarən Erik Zemmur siyasi başlanğıc üçün zəmin yaratdı və nəşrlərdə, radio verilişlərində və televiziya şoularında ifrat sağçı fikirləri açıq şəkildə dəstəkləyib. 30 noyabr 2021-ci ildə o, Fransa prezidentliyinə namizədliyini irəli sürəcəyini açıqladıqdan sonra jurnalist televiziyadakı işini tərk etməli olub. Zemmur prezident seçkilərinə qatılma səbəbini açıqlayarkən deyib: "İstəyirəm ki, gələcəkdə fransız qadınları hicab taxmasın, əcnəbilərə tabe olmasın".

Zemmurun doqquz dəqiqəlik çıxışındakı səhnə 1940-cı ildə Şarl de Qollun nasist Almaniyasına qarşı müqaviməti davam etdirməyə çağırdığı fransızlara müraciətini xatırladır. Zemmur vurğulayıb ki, Janna d'Ark və XIV Lüdovik Fransası yoxa çıxıb və immiqrasiya dövlətin bütün problemlərini daha da ağırlaşdırır. Versal Sarayının kadrları və videodakı Napoleon haqqında filmlərdən parçalar metrodakı qara dərili insanların fotoşəkilləri, dağıdılmış kilsələrin çərçivələri və küçə döyüşləri ilə əvəzlənir. Ölkədə "müasirliyin deqradasiyası" baş verir.

## Vədlər və qalmaqallar

Erik Zemmur israr edir ki, müsəlmanlar ölkəni "müstəmləkələşdirir" və İslam Fransa dəyərlərinə uyğun gəlməyən bir dindir: "Assimilyasiya olunmayan bütün immiqrantları öz ölkələrinə geri göndərmək lazımdır. Fransız uşaqlara Məhəmməd kimi əcnəbi adlardan istifadə etməyi qadağan etmək lazımdır. İmmiqrasiya təkcə mədəni dəyərlərin itirilməsini sürətləndirmir. Müsəlman kişilər fransız qadınları üçün təhlükə, eləcə də potensial terror mənbəyidir".

Zemmur seçiləcəyi təqdirdə təhsil müəssisələrində gender bərabərliyi proqramını ləğv edəcəyini, milli borcun azaldılmasını və Fransanın suverenliyini qaytaracağını vəd edib. Siyasətçi ölkənin NATO-dan çıxmasını dəstəkləyir. O, həmçinin anti-feminist fikirlərini bölüşməyə davam edir və sözdə "LGBT təbliğatını" pisləyir.

2021-ci ilin aprelində Zemmurun məsləhətçisi olan qadını zorla öpdüyü bildirilir, lakin o, günahını etiraf etməyib.

Erik Zemmur Fransanın solçu mediasını "ölkəyə nifrət edən təbliğat maşını" adlandırıb: "Onların müəllifləri Fransa tarixinə və mədəniyyətinə tüpürüb millətin yox olmasını istəyənlərdir".

Zemmurun kitablarında təkcə qalmaqallı açıqlamalar deyil, həm də tarixi qeyri-dəqiqliklər diqqət çəkir. Müəllif Fransanın keçmişdə digər xalqlara qarşı törətdiyi cinayətlərə, o cümlədən İkinci Dünya Müharibəsində öz imicini yaxşılaşdırmağa haqq qazandırmağa çalışıb. Zemmur faşist Almaniyası ilə əməkdaşlıq edən marşal Filip Petenin kollaborsionist rejiminə haqq qazandırır. Siyasətçi II Dünya müharibəsində Fransa vətəndaşlığı olmayan yəhudilərin düşərgələrə deportasiya olunmaq üçün ekstradisiya edildiyini, qalanlarının isə dövlətin himayəsində olduğunu bildirib. Zemmurun iddiası həqiqətə uyğun deyil. "New York Times" qəzetinin yazdığına görə, Fransa yəhudi icmasının liderləri tərəfindən bu, tənqid edilib.

Noyabrın 30-da Erik Zemmur 2022-ci ildə Fransada keçiriləcək prezident seçkilərində iştirak edəcəyini açıqlamışdı. Bir həftə sonra o, Beziersdə 10 mindən çox "Reconquista" tərəfdarının iştirak etdiyi ilk seçkiqabağı mitinqi təşkil etdi. SOS Racisme təşkilatının üzvləri də orada olublar - Zemmurun çıxışı zamanı orada olanların diqqətini "İrqçiliyə yox" şüarı olan köynəklərə çəkmək üçün stullarda dayanıblar. Buna cavab olaraq fəallar döyülüb və təhlükəsizlik xidməti onları oradan çıxarmalı olub.

"Financial Times"ın yazdığına görə, siyasətçi irqçi olmadığını bildirib və əlavə edib ki, biz ölkəmizi, vətənimizi, irsimizi qoruyuruq və övladlarımıza Fransanı həmişə tanıdığımız kimi ötürmək istəyirik. Buna baxmayaraq 8 minə yaxın insan Paris küçələrinə çıxaraq Zemmurun prezidentliyə namizədliyinin irəli sürülməsinə etiraz edib və onu ksenofobiya, homofobiya və qadınlara qarşı ayrıseçkilik siyasəti aparmaqda ittiham edib.

Bəli, Fransanı qarşıda daha ağır vəziyyət gözləyir. Ölkənin 1970-ci illərdən başlamış tənəzzülü daxili çəkişmələr də



bir az da dərinləşdirib. Məhz buna görədir ki, Fransanın xarici siyasəti bütün anlamı ilə uduzur. Sarkozinin prezidentliyi dönəmində rəsmi Paris Liviyada müharibəni yalnız alovlandıra bildi. Bundan o tərəfə isə gedə bilmədi. ABŞ-ın hərbi müdaxiləsi olmasaydı Liviyada başlanmış "ərəb baharı" "fransız baharı" ilə əvəzlənəcəkdi. Çünki Fransa supergüc statusunda deyil. Bundan sonra Parisdən Paris olmayacağı kimi, Makron və Zemmurdan da Şarl de Qol çıxmayacaq.

***V.VƏLİYEV***

# "Yeni media qanununun qəbul edilməsi günün tələbidir"

**"Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalanmışdı. Həmin Fərmanla Medianın İnkişafı Agentliyi yaradılmışdır. Eyni zamanda, Fərmandan irəli gələn tapşırığa uyğun olaraq "Media haqqında" qanun layihəsi də bu gün hazırlanmaqdadır". Bunu Sağlam İnkişaf və Maarifləndirmə ictimai birliyinin sədri Anar Xəlilov SİA-ya açıqlamasında bildirib.**

Onun sözlərinə görə, atılan bu addımlar milli informasiya məkanında inkişafın aparılmasının dövlət üçün prioritet olduğunun göstəricisidir: "Həmçinin bu qanun layihəsinin hazırlanması dövlətin siyasi iradəsini nümayiş etdirir. Müasir mediamızın inkişaf etməsi qanunvericilik bazasının mükəmməl olmasından keçir. Məlum olduğu kimi "Media haqqında" mövcud olan qanun 1999-cu ildə qəbul olunmuş və müxtəlif vaxtlarda 79 dəfə dəyişikliyə məruz qalmışdır. Artıq bu qanun müasir dövrün tələblərinə cavab vermir. Eyni zamanda, dünyada texnologiyaların sürətlə inkişaf etməsi informasiya texnologiyalarının da sürətli inkişafına səbəb olmuşdur. Artıq demək olar ki, hər gün bu sahədə yeni informasiya çatdırılma metodlarının yaradıldığının şahidi oluruq. Xüsusilə sosial şəbəkələr vasitəsilə yeni virtual informasiya vasitələri yaranmaqda və artmaqdadır".

A.Xəlilov onu da bildirib ki, mövcud qanunların aparılan inkişafa uyğun tənzimlənməsi artıq dövrün tələbidir, desək yanılmarıq: "Eyni zamanda, nəzərə almaq lazımdır ki, burada informasiya məkanının qanunla tənzimlənməsi dövlətin və cəmiyyətin təhlükəsizliyi naminə çox ciddi bir məsələdir. Biz bunu 44 günlük Vətən müharibəsi dövründə də müşahidə edirdik. Yalnış informasiyaların yayılması, cəmiyyəti çaşdırmağa yönəlmiş xəbərlərin verilməsi, düşmən xüsusi xidmət orqanlarının fəaliyyəti özünü açıq şəkildə biruzə verirdi. Hərbi texnikalarımızın hərəkəti və ordumuzun mövqelərinin yayımlanması hallarına yol verilirdi. Məhz bu kimi halların qarşısının alınması üçün qanunvericilik bazası gücləndirilməlidir. Heç də bəzilərinin iddia etdikləri kimi bu qanun layihəsi informasiya məkanımızda hansısa digər məqsədlərə yox ancaq medianın inkişafına və təhlükəsizliyin təmin olunmasına xidmət etmək məqsədi daşıyır. Qanun layihəsində vahid Media Reyestrinin yaradılması jurnalistlərin bu reystrə daxil edilməsi nəzərdə tutulur. Vahid jurnalist vəsiqəsinin verilməsi də qanunda öz əksini tapır. Bu isə məlum olduğu kimi bəzi reketçiliklə məşğul olan şəxslərin fəaliyyətinin qarşısının alınması məqsədini daşıyır. Bu isə ancaq media mühitinin sağlamlaşmasına xidmət edəcəkdir. Nəzərə almaq lazımdır ki, bu məsələ qanun layihəsində könüllü xarakter daşıyır. Agentliyin təqdim etdiyi vahid jurnalist vəsiqəsi də olmadan fəaliyyət göstərmək qadağan olunmur. Media subyekti öz əməkdaşlarına özlərinin vəsiqələrini verməkdə tam müstəqildir. Digər bir medianın yaralı yeri olan müəllif hüquqlarının qorunması məsələsidir. Yeni qanunla bu məsələdə hüququ təminatın yaradılması nəzərdə tutulur. Bu isə media subyektləri arasında sağlam rəqabət mühitinin yaradılmasına xidmət edəcəkdir. Artıq biz sosial şəbəkələrdə qanun layihəsindən xəbəri olmayan bəzi şəxslərin çaşdırıcı mövqelərinə rast gəlirik. Bu tip mövqelər cəmiyyəti çaşdırmamalıdır. Məlumat üçün bildirirəm ki, bu qanun sosial şəbəkələrin və "blogger"lərin fəaliyyətini tənzimləmir. İnternet televiziyaların lisenziya al-



ması məcburi deyil. Lisenziyası olmayan internet televiziyası sərbəst öz fəaliyyətini apara bilər. Bu qanun əsas jurnalistika peşəsinin ciddi mahiyyət almasına xidmət etmək üçün istiqamətlənmişdir. İctimaiyyət və media arasında etimadın güclənməsinə xidmət edəcəkdir. Bu qanun çap və onlayn medianın yaradılması üçün dövlət orqanlarında icazə almaq tələb etmir. Vahid reyestrin məqsədi media subyektlərinin statistikasının aparılması üçün nəzərdə tutulur. Reyestrə daxil edilmək üçün tələb olunan məlumatlar və sənədlər hər bir media subyektində mövcuddur. Reyestr sadəcə onları vahid bazada toplayır ki, bu da müasir dövrün tələbidir. Reyestrin aparılması keyfiyyətli xəbər istehsalın təmin etmək məqsədi daşıyır. Reyestrin aparılmasının bir müsbət tərəfi də özünü media subyekti və ya jurnalist kimi təqdim edən, sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısının alınmasına xidmət edəcəkdir".

A.Xəlilov onu qeyd edib ki, qanun lahiyəsi 800-ə yaxın media subyekti, jurnalist və ekspertlərlə müzakirə olunmuşdur: "Hesab edirəm ki, mükəmməl bir qanun layihəsidir və mediamızın müasir inkişaf etməsinə böyük töhfə verəcəkdir. Bir məsələni də vurğulayım ki, açıq etiraf etməliyik ki, bu gün Azərbaycanda milli informasiya subyektlərimiz bizim həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq istiqamətində heç də lazımi nəticələri ortaya qoya bilmir. Bu qanun layihəsində nəzərdə tutulan müddəalar daxili informasiya məkanın təhlükəsizliyinin təmin olunmasına və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına daha geniş şərait yaradacaqdır. Xüsusilə nəzərə almalıyıq ki, tarixi Zəfər Qələbəmizdən sonra Ermənistanla hələ də aramızda sülh müqaviləsi imzalanmayıb. Düşmən yenə də təxribatlarını davam etdirir. Cəbhədə ordumuzun dəmir yumruğu nəticəsində acı məğlubiyyətə düçar olan düşmən informasiya cəbhəsində bunun əvəzini çıxmaq istəyir. Burada da düşmənə ağır zərbə vurmaq üçün milli informasiya məkanımız güclü olmalı, peşəkar jurnalistlərimiz yetişməlidir. Dünya ictimaiyyətinə informasiya çatdırmaq gücündə olan media subyektləri yaranmalıdır. Məhz bunu üçün yeni media qanununun qəbul edilməsi günün tələbi olaraq çox vacibdir".

***Gülyana***

# Regionun gələcəyinə açılan yeni qapı - 3+3 FORMATI



Cənubi Qafqazda "sülhün və sabitliyin təmin edilməsi" məsələlərinə həsr olunmuş "3+3" formatında əməkdaşlıq platformasının Moskvada keçirilən ilk iclası sözün əsl mənasında diqqət mərkəzindədir və ələlxüsus region dövlətləri üçün böyük marağa səbəb olub. Nəzərə almaq lazımdır ki, "3+3" formatında əməkdaşlıq platformasının ilk iclası postmünaqişə dövründə regionun gələcəyi üçün inşa edilən yeni platformanın başlanğıcı hesab olunur və bu baxımdan daha çox diqqəti cəlb edir.

Əlbəttə ki, bu platformadan gözləntilər var və əhəmiyyətini nəzərə alsaq, region dövlətləri üçün maraq dairəsində olduğu da təkzib edilə bilməz. Azərbaycan və Türkiyə prezidentlərinin təşəbbüskarı olduğu formata Rusiya prezidentinin də açıq şəkildə dəstək verməsi heç də təsadüfi deyil. Məsələ burasındadır ki, bir dövlət olaraq Rusiyanın özünün də bu formata maraqlı olduğu heç kim üçün sirr deyil. Əbəs yerə deyildi ki, "3+3" formatında əməkdaşlıq platformasının ilk iclası məhz Moskvada keçirildi və bu fakt özü də deyilənlərin təsdiqidir. Əslində, ekspertlər Moskvada keçirilən ilk iclası regionun gələcəyinə açılan yeni qapı hesab edirlər və etiraf edək ki, haqlıdırlar.

Bildiyimiz kimi, İran əvvəlcə bu formatdan müəyyən mənada uzaq durmağa çalışsa da, bir müddət sonra dəstəkləməli oldu. Bunun da səbəbləri aydındır və nəzərə alsaq ki, belə bir formatın region ölkələri üçün əhəmiyyəti danılmazdır, deməli bu baxımdan İranın da sonradan dəstəkləməsi anlaşılan, başadüşüləndir. Heç şübhəsiz ki, region ölkələri bundan sonra sözügedən formata daha çox maraq göstərəcəklər, çünki sülhün və sabitliyin təmin edilməsi müzakirə mövzusu olduğu təqdirdə bu formatdan imtina edilməməlidir, əksinə dəstəklənməlidir. Görünür elə bu baxımdan İran da öz dəstəyini verməli oldu. Daha doğrusu, başa düşüldü ki, bu formata qoşulmaq İran üçün yalnız faydalıdır.

ATƏT-in Minsk Qrupunun 27 il müddətində Qarabağ münaqişəsinə necə münasibət bəslədiyini təkcə biz yox, bütün region ölkələri gördülər. Gördülər ki, Qarabağ münaqişəsi sözügedən qrupun gündəliyində bəlkə də sonuncu yerdə olub və bu mənada münaqişənin həllinə dırnaqarası "töhvələri" də bəllidir. Məsələyə müşahidəçi mövqe, yanaşma sərgiləyən bu qrup heç nəyə nail ola bilməzdi. Məhz ATƏT-in Minsk Qrupunun belə yanaşması sayəsində münaqişə 30 ilə yaxın müddətdə davam etdi ki, bunu da artıq hamı bilir. Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etmələri barədə BMT-nin məlum dörd qətnaməsi olduğu halda ATƏT-in Minsk Qrupu heç bir nəticə əldə edə bilmədi. Nəticə əldə edilə də bilməzdi, çünki o zamankı Qarabağ münqaşəsi Fransa və ABŞ-ın timsalında regiona daxil olmayaq ölkələrin maraq dairəsində deyildi. Məhz buna görə də, hüquqi baza belə olmasına baxmayaraq, 30 ilə yaxın müddətdə münaqişənin həlli istiqamətində bir addım da irəliləyiş olmadı, əksinə məsələnin həlli daha da uzandı, yaxud uzadıldı. Heç şübhəsiz ki, bu fakt region ölkələri üçün bir təcrübədir və bundan sonra regionda yarana biləcək digər problemli məsələlərin həllinə də regiona aid olmayan ölkələrin maraq göstərməyəcəyinə indi zərrə qədər şübhə yoxdur. Təbii ki, maraq göstərəcək ölkələr yalnız region ölkələri ola bilər, çünki bu ölkələrin özlərində olan məsələlər müzakirə mövzusu hesab olunur. Xüsusən də, sülhün və sabitliyin təmin edilməsi müzakirə mövzusudursa, bu daha həssas mövzu sayılır və daha böyük diqqət tələb edir. Bu baxımdan cəsarətlə deyə bilərik ki, 3+3 formatı, yəni regionun bütün problemlərinin məhz region ölkələri tərəfindən həll edilməsi bütün bölgə üçün ən unikal platforma, ən doğru seçim, ən düzgün addımdır.

İran bir zamanlar uzaq durduğu kimi, indi Gürcüstan da bu formata qoşulmur, yaxud, ola bilsin ki, hələ qoşulmaqda tərəddüd edir. Bizim Gürcüstanın işinə qarışmaq niyyətimiz yoxdur, bir dövlət olaraq qərarı özləri verə bilərlər, amma hər halda qonşu dövlətlərin təcrübəsindən yararlanmaq pis olmazdı. Əslində, 30 ilə yaxın müddətdə məhz regiona daxil olmayaq ölkələrin o zaman mövcud olan Qarabağ münaqişəsinin həlli istiqamətində bir addım belə atmaması, Azərbaycanın bu məsələni öz gücü ilə həll etməsi, qardaş Türkiyənin timsalında bir region dövlətinin siyasi dəstək göstərməsi və bunun müsbət təsiri Gürcüstan üçün bir örnək olmalıdır. Yəqin ki, bu örnək Gürcüstan üçün də yararlı olar və Tbilisi ilə Moskva arasındakı anlaşılmazlığa aydınlıq gətirilməsi üçün ən doğru yol kimi diqqətdən yayınmaz. Gürcüstan üçün 3+3 formatı məsələn, Abxaziya və Sxinvali regionunun reinteqrasiyası məsələlərinin müzakirəsində, hətta həllində çox effektiv, çox əhəmiyyətli ola bilər. Eyni zamanda Gürcüstan nəzərə almalıdır ki, 3+3 formatına qoşulmamaqla həm də regionun gələcəyinə açılan qapıdan kənarda qala və problemlərinin həllində region ölkələrinin təsir imkanlarından məhrum ola bilər. Hər halda Gürcüstan bütün bu məqamları götür-qoy etməlidir və çox güman ki, bu da öz növbəsində təsirsiz ötüşməyəcək.

Ümumiyyətlə, "3+3" platformasının ümdə məqsədi Cənubi Qafqazı ziddiyyətlər regionundan ticari-iqtisadi əməkdaşlıq məkanına çevirməkdir. Bu isə ondan xəbər verir ki, Cənubi Qafqaz sözün əsl mənasında Avrasiyada nəqliyyat mərkəzinə çevrilir. Nəzərə alsaq ki, Zəngəzur dəhlizinin, "Şimal-Cənub" layihəsinin reallaşdırılması Cənubi Qafqaz regionunun qlobal nəqliyyat və logistika sahəsində beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edəcək, deməli, region ölkələrinə dividentləri də təkzib edilə bilməz. Onu da diqqətə çatdıraq ki, Rusiyanın, Türkiyənin və İranın əhalisinin sayı üç yüz milyondan da çoxdur və bunun Cənubi Qafqaz ölkələri üçün böyük satış bazarı olduğunu da nəzərə alsaq görürük ki, "3+3" formatı bu ölkələrlə ticarət əlaqələrinin möhkəmlənməsinə müsbət təsir edəcək. Sözsüz ki, ticarət əlaqələri müxtəlif sahələrin inkişafına, regionda yaşayan insanların məşğulluq səviyyəsinə, rifah halının daha da yaxşılaşdırılmasına öz töhfələrini verəcək.

Qeyd olunduğu kimi, "3+3" formatı region ölkələrinin ticarət əlaqələrinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcək və bu da o deməkdir ki, bu ölkələrin özləri münaqişələrdən uzaq olmağa maraqlı olacaqlar. Bu formatın region ölkələrinə töhfələri artdıqca qarşıdurmalar, toqquşmalar haqqında düşünmək belə maraq dairəsində olmayacaq. Yalnız iqtisadi, ticari maraqlar ön plana keçəcək ki, bu da nəticə etibarı ilə regionun bütün ölkələrini sülh şəraitində yaşamağa sövq edəcək, bir sözlə, bu formatın sülhün daimi təminatçısı kimi də qiymətləndirilməlidir.

Göründüyü kimi, 3+3 formatı yeni baxış, yeni mərhələ deməkdir və gələcək üçün böyük perspektivlər vəd edir. Bu perspektivlər isə öz növbəsində daha geniş imkanlara zəmin yaradır. Həmin imkanlar da regionun bundan sonra daha sürətli inkişafı üçün çox vacib şərtlərdəndir. Bir sözlə, 3+3 formatı regionun gələcəyinə açılan yeni qapı, yeni imkanlar, yeni-yeni perspektivlər deməkdir.

***İnam Hacıyev***

## "Yeni qanun media işçiləri üçün yeni imkanlar açır"



""Media haqqında" qanun layihəsinin hazırlanmasında məqsəd informasiya təhlükəsizliyini gücləndirmək, medianın fəaliyyətini inkişaf etdirmək və stimullaşdırmaqdır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib. Deputatın sözlərinə görə, Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanndan sonra media sahəsində ciddi işlər aparılıb: ""Media haqqında" qanun layhəsinin hazırlanması da bu islahatların növbəti davamıdır. 1999-cu ildən qüvvədə olan və saysız şəkildə dəyişdirilən KİV haqda köhnə qanun yeni reallıqların tələbinə cavab verməməklə yanaşı, mütərəqqi tendensiyaları və media innovasiyalarını tənzimləyə bilmirdi. Yeni qanunda media savadlılığının artırılması ilə bağlı təsbit edilən müddəalar jurnalistlərin peşəkarlığının artırılması, yeni peşəkarların formalaşmasında mühüm rol oynayacaq. Media ilə bağlı yeni qanun müasir standartlara uyğun hüquqi normativ bazasının yaradılmasına imkan verir. Qanun layihəsi media subyektlərinin dəqiq təsnifatını verir".

Millət vəkili qanun layihəsinin onlayn media ilə bağlı hissəsinə də toxunub: "Qanun layihəsi imkan verəcək ki, informasiyanın hazırlanmasında iştirak edənlərlə və informasiyanın istehlakçıları ilə arasındakı münasibətlər tənzimlənsin. Düşünürəm ki, bu qanunun qəbul olunmasından sonra onlayn mediada olan hüquqi problemlərə də son qoyulacaq. Azərbaycanda uzun müddətdir ki, onlayn media fəaliyyət göstərir, lakin onun hüquqi statusunun tanınması bu qanun qəbulundan sonra mümkün olacaq", - deyə deputat vurğulayıb.

S.Mikayılova əlavə edib ki, yeni qanun jurnalistlərin peşəkarlığının artırılması, yeni peşəkarların formalaşmasında mühüm rol oynayacaq: "Qanun layihəsində mediada yayımlanan, dərc olunan informasiya ilə bağlı tələblərin müəyyən edilməsi də müsbət addımdır. Bu qərar da öz növbəsində media mənsubları arasında sosial məsuliyyətin artmasına kömək edəcək. Qanun layihəsi jurnalistlərin, media işçilərinin sosial rifahın yüksəldilməsinə də kömək edəcək. Yeni qanun media işçiləri üçün yeni imkanlar açır. Media reyestrinə daxil edilmiş şəxslər üçün mümkün olan güzəşt və imtiyazlar media işçilərinin sosial rifahın yüksəldilməsinə töhfə vermiş olacaq" - deyə S.Mikayılova qeyd edib.

***Aysel Məmmədova***

## "Rəqəmsal İpək Yolu" layihəsi" "İnnovasiya Dövrü 2021" forumunda təqdim edilib



"AzerTelecom" şirkəti tərəfindən icra edilən və Avropanı Orta və Cənubi Asiyaya bağlayacaq rəqəmsal telekommunikasiya dəhlizinin formalaşmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsi 5-8 dekabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərində "Dubai Expo 2020" çərçivəsində keçirilmiş "VI İnnovasiya Dövrü 2021" forumunda təqdim edilib.

İnnovasiya sahəsində beynəlxalq əməkdaşlığa həsr olunmuş və 50-dən çox məruzəçinin qatıldığı forumda mütəxəssislər innovasiyaların müxtəlif sahələrdə tətbiqi, bu sahədə müasir trendlər barədə faydalı müzakirələr apararaq müxtəlif praktiki misalları, ən yaxşı layihələri təqdim ediblər.

"AzerTelecom" şirkətinin Direktorlar Şurasının sədri Fuad Allahverdiyev forumda çıxış edərək "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsi barəsində ətraflı məlumat verib. O Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə ən qısa rəqəmsal telekommunikasiya dəhlizini formalaşdıracaq layihənin regional bağlantı xidmətlərinin inkişafına, rəqəmsallaşmaya, Qafqaz, Mərkəzi və Cənubi Asiya regionlarında telekommunikasiya sahəsində əməkdaşlığa töhfə verəcəyini qeyd edib.

"Ölkəmizin əlverişli coğrafi yerləşməsi - Qərblə Şərqin kəsişməsində unikal mövqeyi "Rəqəmsal İpək Yolu" kimi strateji layihənin icrasında böyük imkanlar yaradır. Forum intensiv rəqəmsallaşma dövründə layihəmizə mühüm marağın olduğunu bir daha göstərdi. Tədbir layihənin təqdimatı və keçirilmiş müzakirələr baxımından səmərəli oldu və biz Yaxın Şərq ölkələrindən olan bir sıra şirkətlərlə faydalı fikir mübadiləsi apardıq, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdik"- deyə Fuad Allahverdiyev qeyd edib.

"AzerTelecom" Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. "AzerTelecom" Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

Şirkət Avropanı Orta və Cənubi Asiyaya bağlayan irimiqyaslı rəqəmsal infrastruktur layihəsi olan "Rəqəmsal İpək Yolu" layihəsini icra edir. "NEQSOL Holding"in təşəbbüsü ilə həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi 2020-ci ildə ABŞ-da keçirilən "Qlobal Strateji İnfrastruktur Liderlik Forumu"nda (Global Strategic Infrastructure Leadership Forum) Asiyada beş ən yaxşı strateji infrastruktur layihələrindən biri kimi seçilib.

# Böyük Zəfərdən böyük dirçəlişə gedən quruculuq yolu

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun parlaq qələbəsi ilə başa çatdı. "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində Ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. Və dövlət başçısı hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Artıq bu gün işğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır.

Prezident İlham Əliyevin dekabrın 10-da imzaladığı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı Sərəncamı dövlət başçısını bu sahəyə göstərilən qayğısının göstəricisidir. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət?özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.

## DİRÇƏLİŞ VƏ YÜKSƏLİŞ GEDƏN QURUCULUQ YOLU

Sənəddə, həmçinin bildirilir ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaların tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi və azad edilmiş ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığının inkişafı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Düzdür, qlobal pandemiya dövründə iqtisadiyyatımız zərər görüb. Amma bu böhran ölkəmizin ümumi sosial-iqtisadi inkişaf tempinə, hətta regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına be-




lə təsir göstərə bilməyib. Ölkədə heç bir sosial layihə təxirə salınmayıb. Belə ki, bu gün statistik göstəricilərinə nəzər yetirsək görərik ki, artıq bir çox sahələrdə yüksəliş də var. Bu nailiyyətlər, əlbəttə ki, Prezident İlham Əliyevin uğurlu siyasəti hesabına əldə edilib.

## BÖYÜK QAYIDIŞ VƏ "YAŞIL ARTIM" ÖLKƏSİ

İkinci Qarabağ müharibəsində şanlı qələbədən sonra yaranan reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq, bir sözlə, Qarabağı yenidən cənnətməkana çevirməkdir.

Prezident beş prioritetin iki bəndini (işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit, "yaşıl artım" ölkəsi) məhz bu istiqamətə uyğun müəyyənləşdirib. Çünki işğaldan azad olunmuş ərazilər böyük iqtisadi potensiala malikdir və təbii ki, Azərbaycan bu potensialdan maksimum yararlana bilər. Bu iki istiqamətin uğurlu icrası da onu deməyə əsas verir ki, tezliklə Qarabağın iqtisadi imkanlarından əldə ediləcək dividendlər ölkənin qüdrətinin daha da yüksəlişi üçün real zəmin yarada bilər. Çünki Qarabağda dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, trikotaj, turizm, aqrar və "yaşıl enerji" kimi sahələrin böyük inkişaf potensialı var. Yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması isə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Dövlət büdcəsi hesabına Qarabağda 2,2 milyard manatlıq sərmayənin qoyuluşu da təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərdə yaradılacaq iqtisadi infrastrukturlar dayanıqlı inkişafa böyük imkan yaradacaq. Eyni zamanda xarici dövlətlərin iri şirkətləri də bu gün işğaldan azad edilmiş torpaqlarda investisiya yatırımına böyük maraq göstərirlər. Artıq Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan, İsrail kimi dövlətlərdən Qarabağın bərpasına sərmayə axını başlayıb.

Qələbəmizdən bir il keçməsinə baxmayaraq işğaldan azad olunmuş ərazilərimiz tikinti-quruculuq meydanlarına çevrilib. Bir il uzun müddət olmasa da, azad edilmiş ərazilər tamamilə dəyişib və quruculuq işləri sürətlə davam edir. Ötən dövrdə aparılan tikinti-quruculuq işlərinə nəzər salmaq kifayətdir. Belə ki, bu bir il ərzində Qarabağda 11 istiqamətli avtomobil yolu çəkilir, 3 hava limanı, 3 dəmiryolu tikilir, kommunikasiya stansiyaları qurulur və s. tədbirlər həyata keçirilir. Belə ki, "Zəfər" yolu azad olunmuş ərazilərdəki ən mühüm layihələrdən biri olmaqla Füzuli rayonundan Şuşa şəhərinə çəkilib və uzunluğu 101,5 kilometrdir. Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, Füzuli-Cəbrayıl-Zəngilan-Ağbənd, Horadiz-Zəngilan-Ağbənd dəmiryolları çəkilir, elektrik enerjisi, su təchizatı sistemləri yenidən qurulur. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk "ağıllı kənd", "Dost Aqropark" layihələri icra edilir. Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanda yaşayış məntəqələrinin salınması ilə bağlı planlar hazırlanıb. Bundan başqa, Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini keçirib. Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının, Füzulinin Dövlətyarlı kəndində "ağıllı kənd" konsepsiyası əsasında yaradılacaq böyük yaşayış məntəqəsinin, Zəfər və İşğal muzeylərinin, Cənubi Qafqazda ilk dəfə tətbiq olunan "Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi" elektrik şəbəkəsinin təməli qoyulub. Nəzərə alaq ki, Qarabağın hava qapısı artıq hazırdır. Füzuli Beynəlxalq Hava Limanı beynəlxalq reysləri qəbul etmək imkanına malikdir. Eyni zamanda azad edilmiş ərazilərdə 600 kilometrdən çox avtomobil yollarının salınması və təmiri həyata keçirilir. Həmin ərazilərdə çoxsahəli və genişmiqyaslı işlər aparılır. Digər tərəfdən, Zəngəzur dəhlizinin təməli qoyuldu.

## AZƏRBAYCAN PREZİDENTİ: "MƏNİM SÖZÜM İMZAM QƏDƏR QÜVVƏTLİDİR"

44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlayıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesinə start verilib. Prezident İlham Əliyev həmişə çıxışlarında "Mənim sözüm imzam qədər qüvvətlidir"-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub.

"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Bütün müharibələrdə olduğu kimi, İkinci Qarabağ müharibəsinin taleyini də strateji bir hədəf həll edirdi ki, bu da Şuşa idi. Məhz buna görə 44 günlük müharibədə çox böyük uzaqgörənlik nümayiş etdirən müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşən ordunun böyük hissəsini Şuşa istiqamətində səfərbər etdi. Şuşa qələbəsindən sonra azğın düşmən ağ bayraq qaldıraraq təslim oldu, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı, hələ azad olunmamış üç rayonla yanaşı, bir neçə kəndimizi boşaltmaq öhdəliyini üzərinə götürdü və Zəngəzur dəhlizinin açılmasına razılıq verməyə məcbur edildi.

## AZƏRBAYCAN PREZİDENTİ CƏMİ BİR İL ƏRZİNDƏ QARABAĞIN DİRÇƏLİŞİ YOLUNDA BİR ÇOX DÖVLƏTLƏRİN 10 İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİYİ İŞLƏRİ REALLAŞDIRIB

Bu gün görülən işlər göz önünüdədir. Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Cəmi bir il öncə Vətən müharibəsi başlayanda Azərbaycan Prezidenti xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq.

Bəli, bu gün Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir.

Bütün bunlar bir daha təsdiq edir ki, azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaq. Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərin, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq.Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə, 2022-ci ildə də yeni-yeni uğurlara nail olacaq.

***RƏFİQƏ KAMALQIZI***

# Ermənistanla sərhəddə DSX-nin yeni komendantlığı fəaliyyətə başlayıb

**Dekabr ayının 14-də Zəngilan rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb. DSX-nın Mətbuat mərkəzindən SİA-ya verilən məlumata görə, bununla əlaqədar təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək yeni hərbi hissənin fəaliyyətə başlaması münasibətilə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.**

Çıxışda ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsindən və dövlət sərhədlərinin işğaldan azad olunmasından sonra Azərbaycan Respublika-sının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bu ərazilərdə sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılmasının davam etdirilməsi, cari il ərzində 19 yeni hərbi hissənin və 104 sərhəd-döyüş məntəqəsinin fəaliyyətə başlaması qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin cari ilin oktyabr ayında işğaldan azad edilmiş ərazilərdə Dövlət Sərhəd Xidmətinin 3 yeni hərbi hissəsinə gəlişinin sərhəd mühafizəsi məsələlərinə göstərilən ali etimadın ifadəsi olduğu və sərhədçiləri yeni xidməti uğurlara ruhlandırdığı vurğulanıb.







Çıxışda hər bir Azərbaycan sərhədçisi üçün azad olunmuş müqəddəs sərhədlərimizdə xidmət etməyin böyük şərəf və qürur mənbəyi olması qeyd edilmiş, şəxsi heyətin gələcək xidməti-döyüş fəaliyyətində uğurlar arzulanıb.

Yeni hərbi hissənin açılışını bildirən rəmzi lent kəsildikdən sonra tədbir iştirakçıları sərhəd komendantlığında yaradılmış şəraitlə tanış olublar. Burada şəxsi heyət üçün iş otaqları, zabit-gizir və əsgər yataqxanaları, yeməkxana, hamam-camaşırxana-qazanxana kompleksi, silah və təminat anbarları vardır. Hərbi hissənin elektrik enerjisi ilə təmin edilməsi üçün elektrik generatorları quraşdırılmış, su xətti çəkilmişdir. Ərazidə sıra meydanı yaradılmış, abadlıq işləri həyata keçirilmiş, ağaclar əkilib. Tədbirin sonunda xidməti fəaliyyətində fərqlənmiş hərbi qulluqçular təltif olunublar.

ŞOK FAKTLAR!

# Mənşəyi bəlli olmayan dönərlər necə hazırlanır?

**"Dönərxanalar neçə illərdir ki, Azərbaycan istehlakçılarının tədricən və qəfil zəhərlənmə mənbəyinə çevrilib. Dönərlər standartlara uyğun hazırlanıb bişirilərsə heç bir təhlükə olmaz". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.**

Onun sözlərinə görə, 6 il bundan öncə dövlət orqanları dönərxanaların standartlarını hazırladı və ortada müəyyən tələblər var. "Dönərləri hazırlayıb, şişə taxıb onu şok dondurmadan keçirib soyuq zəncir şəraitində dönərxanalara çatdıran iki müəssisə müəyyən olundu. Bu "AzProtein Food" və "Səhliyalı" şirkətidir. Lakin Azərbaycanda fəaliyyət göstərən dönərxanaların heç 1 faizi də həmin yerdən dönər almırlar. Özləri naməlum ətləri şişə çəkirlər. Hansı dönərxanalara getsək görərik ki, orada AQTA-nın sertifikatı var. Yəni, ətə sertifikat verilir. Bu sertifikatlar həmin malın təhlükəsizliyini təmin etmir".



Eyyub Hüseynov sözlərinə belə davam edib: "Üstəlik ölkədə zəhərlənməyə görə cəld mexanizm yoxdur. Yəni, istehlakçı zəng edib desə ki, "filan yerdə təhlükəli mal satılır" bu zaman dövlət orqanları oraya cəld müdaxilə edə bilmirlər. Bunun üçün uzun bir prosedur var. Ona görə də biz təklif edirik ki, qida təhlükəsizliyinin təmin olunması üçün bu prosedur sadələşdirilsin. Dövlət orqanlarının müəssisələrə cəld monitorinq aparmaq imkanları yaradılsın. Təəssüf ki, bu yoxdur. Ona görə də biznes qrumları dövlətin onlar üçün yaratdığı rahat şəraitdən sui-istifadə edir. Nəticədə də təhlükəli mallar və dönər istehsal edilir. Bu yolverilməzdir".

"Təklif edirik ki, dövlətin yoxlama mexanizmi sadələşdirilsin. Dönərxanaların qarşısında qaynar telefon xətləri açılsın və dönərçilərin bir assosiasiyası yaradılsın. Mən bir ictimai təşkilatın sədri olaraq həmin assosiasiyanın yaradılmasına tam təmənnasız şəkildə kömək etməyə hazıram ki, biz bu sektoru sağlamlaşdıraq".

Qida üzrə baş mütəxəssis Ağa Salamov isə məsələyə bu cür münasibət bildirib: "Ölkəyə idxal olunan ət məhsulları donmuş vəziyyətdə gəlir və dönərxanalarda işlənilən ətlərin çoxu ucuz ətlərdir. Ucuz ətlər də ölkəyə xaricdən idxal olunan qeyri yerli ət məhsullarıdır. Məsələn, Ukraynadan, Hindistandan gəlir. Bu ət məhsulları don vəziyyətdə gəlir və bunu dönərxanalar üçün emal edən müəssisələr onun buzunu açır və yenidən dondurur ki, dönərxanalara satış etsinlər. Dönərxanalara satış edəndə də yenidən buzunu açıb satırlar. Bir dəfə bu donub gəlib ölkəyə və ikinci dəfə donu açılır yenidən dondurulur və onlar donunu açıb istifadə edəndə zəhərlənmə halları baş verir.

Yəni, fikir versəniz dönərxanalarda dönər ətlərinin qiyməti çox aşağıdır. Bu artıq onların keyfiyyətinin aşağı olmasından xəbər verir. Mayonez məhsulları da otaq temperaturundadır. Yəni, dönərxana bilirsiniz ki, isti olur və orada spiral hər zaman yanır. Yəni, dönər aparatı işləyir və bəzi dönərxanalarda da yanında manqal da olur, kabab da olur və mayonez məhsulları, sousları hansı ki, dönərin arasına vururlar, o mayonezli souslar otaq temperaturunda qalır və otaq temperaturunda qaldığı vaxtda ağırlaşma olur, keyfiyyətinin aşağı düşməsi əmələ gəlir. Bu da təbii ki, zəhərlənmə hallarına yol aça bilər.

Bir də ki, qida məhsullarının düzgün emal olunmaması var. Məsələn, otaq temperaturunda əti saatlarla saxlayırlar, guya bunlar dönər ətini şişə vururlar, saatlarla qalır, emal vaxtı uzun sürür. Yəni, iki saata emal tamamlanmalıdırsa bunlar 3 saat ərzində, 4 saat ərzində emalı hələ tamamlandırmırlar və bu da mikroorqanizmlərin qida məhsullarında əmələ gəlməsi nəticəsində zəhərlənmə halları baş verə bilər".

*Ayşən Vəli*

# Ərəb turistlər niyə Azərbaycana meyillidir?



"Təəssüf ki, Ərəb ölkələrindən Azərbaycana gələn turistlərin səfərində iki məqsəd güddüklərini bilirik. Bunlardan biri qanunsuz ov, digəri isə seks məsələsidir". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Lalə Mehralı bildirib. Onun sözlərinə görə, ərəb turistlərin burada azyaşlı qızları istismar etdikləri də məlumdur: "Biz zaman-zaman bu hadisələrin sosial şəbəkələrdə yayımlanması nəticəsində xəbərdar oluruq. Azyaşlıların buna cəlb olunması isə daha ağrılı bir mövzudur. Qanunsuz ov məsələsinə müəyyən qədər diqqət göstərildi, ancaq yenə də gizli şəkildə bu baş tutur. Düzdür, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu məsələdə son dərəcə diqqətli olduğunu bəyan etdi. Amma hesab edirəm ki, tam şəkildə qarşısı alınmayıb".

L.Mehralı sözlərinə davam edərək həmçinin bildirib ki, çox təəssüf ki, bəzən 16-17 yaşlı qızlarımız Ərəb şeyxləri ilə tanış olmaq, münasibətdə olmağı daha yaxşı həyat yaşamaq üçün edirlər: "Lakin əksəriyyəti qadın istismarının qurbanına çevrilir. Bu səbəbdən də hesab edirəm ki, xüsusilə Ərəb ölkələrindən gələnlər üçün xüsusi nəzarətin tətbiq olunması vacibdir".

*Səbinə Hüseynli*

# "Terrorizm dünyamızı hədələyir"

**"Dekabr ayının 9-u və 10-u tarixlərində Amerika Birləşmiş Ştatlarının onlayn formatda təşkil etdiyi "Demokrat yolunda" sammitinin demokratiyaya heç bir dəxli yoxdur. Bu ilin noyabr ayının 24-də ABŞ Dövlət Departamenti 110 dövləti bu sammitə dəvət edib və həmin sammitə dəvət edilən ölkələrin siyahısına baxdıqda çox böyük təəccüb və təəssüf hissi ilə qeyd etmək istəyirik ki, bu artıq Amerika sayağı demokratiyadır". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.**

Onun sözlərinə görə, Amerika Birləşmiş Ştatları demokratiya sözünü artıq özəlləşdirib: "Bu demokratiya sözü sanki Amerika Birləşmiş Ştatlarının mülkiyyətində olan bir əmlaka çevrilib və Afrikadan Konqo Respublikası dəvət alıb. Demokratiya və Konqonun adlarının yanaşı çəkilməsi belə mümkün deyil. Bu sammitə Çin dəvət almır və eyni zamanda Birləşmiş Ştatlar Çini vahid dövlət kimi tanıyır, amma Tayvanı dəvət edib".



Deputat sözlərinə belə davam edib: "Azərbaycan Respublikası regionda əsas güc mərkəzidir və Birləşmiş Ştatlarda da strateji tərəfdaşlıq münasibətlərindədir. Amma buraya Ermənistan dəvət alıb. Ermənistan baş naziri Nikol Paşinyan bu tədbirə qoşulub. O Ermənistan ki, 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxladı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirdi, vandalizm hərəkətləri etdi, soyqırımı törətdi, Azərbaycanın tarixi mədəni dinini məhv etdi və belə bir dövlət həmin sammitdə iştirak edir. Bu bəri başdan onu göstərir ki, bu sammit anti-demokratikdir. Ermənistanın iştirakına gəldikdə isə Ermənistan baş nazirinin burada niyyəti odur ki, bu iştirakla özünü demokratik dövlət olduğunun bir fonunu yaratsın. Halbuki demokratiya və Ermənistan sözləri bir-birinin antonimidir".

"Eyni zamanda, Ermənistanın niyyəti ondan ibarətdir ki, 44 günlük müharibə dövründə beynəlxalq, daxili ictimai fikri çaşdırmaq üçün söyləyirdi ki, əslində Ermənistan Azərbaycanla yox, Türkiyə ilə müharibədədir. Bu daha çox Rusiya ictimaiyyətinə ünvanlanmış bir mövqedir. İndi isə bu sammitə qoşulmaqla fon yaratmaq istəyir ki, Ermənistan demokratik dövlətdir dəvət alıb. Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat katibi də açıq şəkildə bəyan edib ki, bu sammitə qatılmaqda məqsədimiz Azərbaycana qarşı qarşıdurmanı, Azərbaycana qarşı təzyiqlərimizi formalaşdırmaqla bağlıdır.

Bu günləri dünyamız pandemiya ilə üz-üzə qalıb, bugün beynəlxalq səylərə, vahid mövqeyə böyük ehtiyac var. Terrorizm dünyamızı hədələyir, ciddi ekoloji problemlər mövcuddur və belə olan vəziyyətdə bu ağır problemlərə qalib gəlmək üçün dünya birləşməlidir, birgə səylər ortaya qoyulmalıdır. Amma Amerika Birləşmiş Ştatları isə əksinə bu addımları ilə dünyanı parçalamış olur və 424 milyon dollar demokratik hesab etdiyi dövlətlərə vəsait ayırır və bu vəsaitin bir hissəsi də korrupsiya ilə mübarizə məsələlərinə ayrılıb. Təsəvvür edin ki, korrupsiya ilə mübarizəyə vəsait ayrılan bir dövlətdə ABŞ prezidenti Baydenin oğlu Çində əməkdaşlıq etdiyi bir quruma investisiya qoyub".

***Ayşən Vəli***

# Ermənilərin Ərdoğan xofu...



**...Məsəl var, deyərlər, "...axmağa hörmət edərsən, deyər məndən qorxdu".**

**...Deməli, xatırladaq ki, Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlu ötən gün parlamentdə çıxışı zamanı rəsmi Ankaranın Ermənistanla münasibətlərin normallaşdırılması çərçivəsində xüsusi nümayəndə təyin edəcəyi barədə danışıb. Maraqlıdır ki, türk rəsmisinin dediklərindən xoflanan ermənilər bu gün buna "min cür don" geydirməyə çalışırlar.**

Məsələn, ermənilərin "Şərəfim var" fraksiyasından olan deputat Tiqran Abramyan öz şəxsi "Facebook" səhifəsində Ankara və İrəvan münasibətləri tənzimləmək üçün xüsusi nümayəndələr təyin etmək barədə razılığa gəldiklərini yazaraq, bunun "erməni ərazisindən dəhliz verilməsinin" başlanğıcı olduğunu bildirib. Abramyana görə, bu təklifin davamlı olaraq Türkiyə tərəfdən gəldiyini nəzərə alsaq, nümayəndələrin təyinatı və pərdəarxası razılaşmalar mövzusunun artıq kifayət qədər real olduğu görünür.

"...Yeri gəlmişkən, bir neçə həftə əvvəl Ermənistan xarici işlər naziri etiraf etmişdi ki, iqtidarın müsbət təbliğat çərçivəsində təqdim etdiyi Ermənistan-Türkiyə prosesində Türkiyə ilkin şərt kimi dəhliz məsələsini irəli sürür".

Qeyd edək ki, bu fikirləri şəxsi "Facebook" səhifəsində yazan Abramyan bu gün daha bir qapalı və gizli prosesin də üzə çıxdığını deyərək, onun "dağıdıcı nəticələrinin" hələ ki, qiymətləndirməkdə çətinlik çəkdiyini də bəyan edib.

..."Ermənistan ərazisində Türkiyəyə keçəcək heç-bir dəhliz-filan olmayacaq". Qeyd edək ki, bunu isə ötən gün parlamentin Müdafiə və Təhlükəsizlik daimi komissiyasının rəhbəri, hakim "Vətəndaş müqaviləsi" partiyasından olan deputat Andranik Köçəryan bildirib. Bundan sonra ölkəyə tam söz azadlığı və demokratiya vəd edən Nikol tərəfdaşı məlul bir görkəm alaraq Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun bəyan etdiyi kimi, bu gün Ermənistanın da danışıqlara ehtiyacı olduğunu da gizlətməyib

Koçaryana görə, tərəflər arasında danışıqlar başlayacağı təqdirdə danışıqları həm onlar, həm də biz tərəfdən təyin olunmuş xüsusi adamlar aparacaqlar. Ona görə də, Ermənistandan olan həmin xüsusi nümayəndənin adı açıqlananda jurnalistlər həmin şəxsdən müsahibə və ya bütün suallara cavab almaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, erməni jurnalistləri narazı salan isə Andranik Koçaryanın Ermənistan-Türkiyə münasibətlərində Qarabağın öz müqəddəratını təyinetmə hüququndan imtina etməsi və erməni soyqırımının tanınması prosesinin olub-olmaması sualına cavab verməkdən yayınması olub.

...Yeri gəlmişkən, bu gün elə Andranikə sual verən jurnalistlər də daxil olmaqla, əksər ermənilər yaranmış şəraitdə Paşinyanın konstitusion yolla dəyişdirilməsinin qeyri-mümkün olduğunu yaxşı anlayırlar.

Bildirək ki, qanunla hökumətə etimadsızlıq ifadə etmək üçün konstitusiya imkan pəncərəsi yalnız 2022-ci ilin avqustunda açıla bilər. Bundan əlavə, ekstremal hallarda hökumət üçün bir növ daxili siyasi müdafiə vasitəsi olan hərbi vəziyyət və ya fövqəladə vəziyyətin tətbiqi variantı bu gün də mövcuddur.

Onu da qeyd edək ki, hazırda bəzi erməni rəsmiləri onların "etiraz"larına baxmayaraq, dəhlizin elə yaxın vaxtlarda reallaşacağına inanırlar. Amma məsələ bundadır ki, dünyada "erməni xisləti" kimi tanınan bir məfhum var. Məsələn, bu gün ermənilər dəhlizin reallaşmasında qorxudan nədir?

Ermənilər qorxurlar ki, dəhliz açılacağı təqdirdə Ərdoğan iqtisadiyyatı sabitləşdirməyə kömək edəcək hər hansı xarici siyasət addımından əhəmiyyətli faydalar əldə edəcək. Çünki ermənilər hələ də Türkiyədə keçiriləcək 2023-cü il seçkiləri ərəfəsində ölkədə artan inflyasiyanın Ərdoğanın populyarlığını təhdid edəcəyini düşünürlər.

***Ağasəf Babayev***

# Ermənistan ordusunda əsgər qətli, intihar və təxribatlar artır...

**Ordu dövlətin əsas atributlarından biri, hakimiyyətin və cəmiyyətin güzgüsüdür. Ordu bir ölkənin lakmus kağızıdır. Onun vəziyyəti ilə cəmiyyətin və hakimiyyətin halını müəyyən etmək olar.**

Ötən il 44 günlük müharibə zamanı aldığı zərbədən sonra işğalçı Ermənistan ordusu hələ də təşkilatlana bilmir. Müharibə bitəndən sonra 4 müdafiə nazirinin dəyişməsi bunu bir daha sübut edir. Qeyd edək ki, müharibə zamanı Ermənistanın müdafiə naziri postunu David Tonoyan tuturdu. O, 2020-ci il noyabrın 20-də işdən çıxarılıb. Həmin vəzifəyə Vaqarşak Arutyunyan təyin olunub. O, 2021-ci il iyulun 20-də vəzifəsindən azad olunub. Həmin il avqustun 2-də Arşak Karapetyan Ermənistanın müdafiə naziri təyin olunmuşdu. Noyabrın 15-də o, vəzifəsindən uzaqlaşdırılaraq yerinə baş nazirin müavini Suren Papikyan təyin olunub. Onun da dəyişdiriləcəyi barədə söz-söhbət gəzməkdədir. İddia edilir ki, Suren Papikyan Ermənistan Silahlı Qüvvələrində narazı və hökumətə qarşı olanları təmizləməklə məşğul olacaq. Bu səbəbdən onun ordu ilə deyil, daha çox ölkədaxili siyasətlə məğul olduğu bildirilir. Bu isə Ermənistan ordusunda hərc-mərcliyin davam etdiyini deməyə əsas verir.

Son günlər Azərbaycan sərhədində törədilən təxribat və erməni əsgərlər arasında qarşıdurma da bunu təsdiqləyir. İki ölkə arasında atəşkəslə bağlı razılaşama olmasına baxmayaraq, Ermənistan hərbçiləri sərhəddə Azərbaycan əsgərinə hücum edir, yaxud Ermənistan vətəndaşları təxribat törətmək üçün Azərbaycan ərazisinə keçir. Rəsmi İrəvan bu başıpozuqluğu müxtəlif bəhanələrlə örtbasdır etməyə cəhd edir. Ancaq Ermənistan ordusunun mənəvi cəhətdən aşındığı göz önündədir. Dekabrın 9-u və 11-də yayılan iki xəbər bunu bir daha sübut edir. Dekabrın 9-da Ermənistan ordusunun hərbçisi öz əsgər yoldaşı tərəfindən açılan atəş nəticəsində yaralanıb. Məlumata görə, dekabrın 8-də gecə saatlarında 2003-cü ildə anadan olan sıravi əsgər Senik Saakyan hərbçi yoldaşının açdığı atəş nəticəsində yaralanıb: "Hərbçinin vəziyyəti çox ağırdır". Dekabrın 10-da isə Ermənistanda hərbi hissədə silahlı insident olub: bir hərbçi ölüb, 2-si yaralanıb. Hadisə Ermənistanın cənubunda yerləşən hərbi hissələrdən birində baş verib. Kimliyi açıqlanmayan əsgərin açdığı atəş nəticəsində 2002-ci il təvəllüdlü Senik Arzumanyan ölüb. Həmin hərbçiyə qarşı Cinayət Məcəlləsinin qəsdən adamöldürmə və hərbi hissədə qəsdən adam öldürməyə cəhd maddələri ilə cinayət işi açılıb.



Dekabrın 13-də Ermənistan Silahlı Qüvvələrinin bir qrup yüksək rütbəli zabiti barəsində həbs qətimkan tədbiri seçilib. Ordunun deqradasiyası ölkədəki siyasilər tərəfindən də tənqid edilir. Deputat Tiqran Abrahamyan bildirib ki, silahlı qüvvələrdə baş verənlər kompleks problemlərin nəticəsidir. Onun sözlərinə görə, əsgərlərin intiharı, öz yoldaşlarını güllələyərək öldürməsi, təhlükəsizlik qaydalarına əməl edilməməsi kimi hadisələr nəticəsində baş verən ölüm halları orduda nizam-intizamın olmamasından xəbər verir. T.Abrahamyan iddia edir ki, Müdafiə Nazirliyi və Baş Qərargah daha çox daxili siyasət xarakterli işlərlə məşğul olduqlarından ordudakı problemləri həll etməyə vaxtları olmur.

Deməli, orduda baş verən hadisələr Ermənistandakı vəziyyətin güzgüsüdür. Siyasi qüvvələr daxilində hakimiyyət uğrunda çəkişmələrin silahlı qüvvələrə də nüfuz etdiyi istisna edilmir. Ötən il Ermənistan ordusunda generallar və yüksək rütbəli zabitlərin baş nazir Nikol Paşinyanın istefasını tələb etməsi də bunu isbatlayır. Həmin zabitlərin böyük bir hissəsi hələ də ordu sıralarında xıdmət edir. Ordunun siyasi intriqalara qarışması silahlı qüvvələrin vahid komandanlığının zəif olduğunu deməyə əsas verir. Bu isə öz növbəsində sərhəddə təxribatlara, əsgərlər arasında nizam-intizamın zəif olmasına təsir göstərir. Belə çıxır, Ermənistan ordusunda ikihakimiyyətlilik mövcuddur. Onlardan birinin ali baş komandanı Nikol Paşinyandır, o birinki isə hakimiyyətə bağlı deyil. Elə Tiqran Abrahamyan da orduda baş verən pozuculuq hadisələrinin bəzilərinin səbəbini açıqlamaq istəmədiyini bildirib. Bu da Ermənistan ordusunda başqa əllərin olduğundan xəbər verir. Ölkə iqtidarı və müxalifəti də oxşar vəziyyətdədir. Hökumət Rusiya ilə Qərb arasında vurnuxur, müxalifət isə revanş üçün Moskvanın dəstəyinə arxalanır. Cəmiyyətin güzgüsü olan Ermənistan ordusu həm də hakimiyyətin və cəmiyyətin törəməsidir.

ANALİTİK+AKTUAL

# Avropadakı

## Silvalar, Zaurilər, Andraniklər, Njdelər, Montelər və Zorilər

**“Tarixin hər bir mərhələsində siyasi reneqatlara, ”5-ci kolon”a rast gəlmişik. Çox təəssüflər olsun ki, milliliklərini, dinini, dövlətini, xalqını sataraq düşmən düşərgəsinə keçənlər, şəxsi maraqları naminə dövlətçilik ideallarını düşmənə kapitulyasiya edənlər bu gün də sıralarımızda var. Hazırda biz onları Sevinc Osmanqizi, Məhəmməd Mirzəli, Emin Hüseynov, Qənimət Zahidov, Əli Kərimli və s. kimi tanıyırıq. Əsas məqsədləri də nə olur-olsun, şəraitdən asılı olmayaraq, onlara verilmiş siyasi tapşırığı yerinə yetirmək, haqq-ədalət yolunda olan xalqı, dövləti zərbə altına salmaqdır”. SİA xəbər verir ki, YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyovun ”Siyasi reneqatların yeni xəyanət marafonu, yaxud, kollektiv Paşinyanların uşaq qatillərinə sevgi etirafı” sərlöhvləli yazısı partiyanın ”Facebook” sosial şəbəkə hesabında və Teleqram qrupunda paylaşışıb.**




**Yaxud, Sevinc Osmanqızı Anna Akopyanı Nikol Paşinyandan nəyə görə boşatdıracaq?**

Onu da qeyd edək ki, hazırda ABŞ-da yaşayan və davamlı olaraq Azərbaycan dövlətinin maraqlarına qarşı çıxan Sevinc Osmanqızının bəlli qaranlıq dairələr tərəfindən və sifarişlər əsasında, eləcə də bilavasitə erməni dəyirmanına su tökməsi faktı da ictimai rəydə ciddi narazılıq və hiddət doğurub.

### Açıq etiraf etməsələr də, sözün əsl mənasında, ermənidən betər ermənilərdirlər!

Daha bir maraqlı məqam isə yalnız Sevinc Osmanqızının deyil, digər Qərb ölkələrində ”siyasi mühacir” adı altında oturub erməni lobbisinin maraqlarına nökərçilik edənlərin də kollektiv Paşinyansevər olmalarıdır. Yəni fakt budur ki, bu ünsürlərin hər biri birbaşa Azərbaycan xalqının, dövlətinin, millətinin düşmənləridirlər - açıq etiraf etməsələr də sözün əsl mənasında ermənidən betər ermənilərdirlər!

Beləliklə, qayıdaq sözügedən yazıya. ”Xüsusilə də, istehza və təhqir onların əsas manipulyasiya alətləridir”, deyə qeyd edən müəllif bildirir ki, öz çirkin siyasi mübarizəsini yalan, böhtan, təhqir və istehza üzərində qurmuş radikalların tək amacı ölkə daxilində vətəndaş qarşıdurmasının yaradılmasıdır: ”Məhz, bu cür silahlandırılmış siyasi reneqatlardan ibarət ”5-ci kolon” Azərbaycan dövlətinin və xalqının Zəfərindən sonra xüsusilə radikallaşıb, açıq düşmənçilik fazasına keçiblər. Təsəvvür edin, bir zamanlar azərbaycanlıları ”xuliqan, bandit” adlandıran, Hərbi Qənimətlər Parkına görə Azərbaycan xalqını təhqir edən, ”Əclaf Azərbaycan silahlı qüvvələri Dağlıq Qarabağın silahlı birləşmələrinə atəş açırlar”, ”Ermənistanın Paşinyanı sammitə dəvət olunmalıdır. Bunu deyən mənəm, azərbaycanlıyam...” deyən, Ermənistanın vəkilliyini edən Sevinc Osmanqızı bu gün açıq şəkildə deyir ki, ”Kaş ki, Prezidentimiz Paşinyan olardı”. ”Kaş ki, Prezidentimiz Paşinyan olardı” sözləri yalnız öz dövlətinə və Vətəninə qarşı edilmiş xəyanət aktı deyil, eyni zamanda, üç minə yaxın şəhidimizə, 12 minə qədər qazimizə qarşı edilmiş mənəviyyatsızlıq deyilmi? Beş dəqiqəlik efir şöhrəti, qalmaqal və ”layk” naminə 3 min şəhid ailəsinin evindəki göz yaşlarına səbəb olmuş Paşinyanı özünə örnək hesab edən Osmanqızı kimilər artıq ”Vətənim Azərbaycan” sözlərini demək haqqını itirmiş satqınlardır”.

### “Bu, İslam ölkələrinin, müsəlmanların timsalında radikalist, terrorçu obrazı formalaşdıran Qərb fundamentalistlərinin illərdir həyata keçirdiyi siyasi-ideoloji xəttin məhsuludur”

Məqalədə daha bir nüans diqqət çəkir. SİTAT: ”Canlı efirdə izləyicilərin qarşısında bu sözlərin səsləndirilməsi heç şübhəsiz ki, bilavasitə ”xəyanətə hazıram” mesajının düşmənə ötürülməsi deməkdir. Siz deyin, ”Kaş ki, mənim rəhbərim erməni olaydı” deyənin özünü azərbaycanlı hesab etmək üçün mənəvi haqqı varmı? Məlum efirdən Ermənistanın Baş nazirinə rəğbət etiraflarından sonra aparıcı Sevinc Osmanqızı öz verilişlərini artıq yalnız erməni dilində aparmalı deyilmi? ”Osmanqızı tv” kanalında baş verənlər artıq sadəcə efir xuliqanlığı deyil, hətta bir cinayətdir. ”Kaş ki, Prezidentimiz Paşinyan olardı” sözləri deyən şəxs insanları açıq şəkildə Vətənə qarşı casusluğa sövq edir. Heç şübhəsiz ki, damarlarında azərbaycanlı qanı axan insan mina xəritələrini alver predmetinə çevirən Ermənistanın Baş nazirini özünə nümunə və örnək saya bilməz. Mülki şəxslərin ölümünə və şikəst olmasına səbəb olan, mina xəritələrini verməyən rəsmi İrəvanın rəhbərliyini tərifləyən radikal müxalifət ”əcəb edib xəritələri verməyiblər” demiş kimi də olurlar. Bu mənada, ”Kaş ki, Prezidentimiz Paşinyan olardı” sözlərinin müəllifi xalqın uğur və sevinclərinə sevinməz, onu şad edən ancaq Ermənistanın cinayətləridir. Necə ki, Əli Kərimlinin qadın truppasının rəhbəri Dilarə Miriyeva ermənilərin mina terroru zamanı şəhid olmuş jurnalistlərimizə ”zurnalist” deyirdi, Qənimət Zahid isə Hərbi Qənimətlər Parkına ”Hərbi Cinayətlər Parkı” adı verirdi... Erməni ideologiyasının daşıyıcılarından biri olan AXCP üzvü Məhəmməd Mirzəli isə Azərbaycanı Avropada ”Qarabağ” adı ilə təmsil edən futbol komandasına qarşı təxribat törədir və sonra da ”facebook” statusunda yazır ki, ”Qarabağ” futbol klubunu radikal islamçılar idarə edir və bu adamlar yeri gəlsə, stadionun ortasında başda kəsərlər, yəni bu qədər əclaf adamlardır”. Bu cür fikir bilirsinizmi kimlərin ritorikasıdır? Bu, İslam ölkələrinin, müsəlmanların timsalında radikalist, terrorçu obrazı formalaşdıran Qərb fundamentalistlərinin illərdir həyata keçirdiyi siyasi-ideoloji xəttin məhsuludur”.

### “Düşünün, özünə azərbaycanlı deyən kimsə, öz ordusundan düşmənlərə şikayət edərmi?”

Müəllif haqlı olaraq sual edir - İndi başa düşürsünüzmü ki, Əli Kərimlidən təlimatlar alan bu cəbhəçi Məhəmməd Mirzəli hansı dairələrə qulluq edir..? Azərbaycandan qadın paltarından qaçmış, anasının erməni olması barədə sübutlar olan RATİ sədri Emin Hüseynov daha da irəli gedərək şəhidlərimizin qisasını almış, torpaqlarımızı işğaldan azad etmiş, hazırda da düşmənlə üz-üzə dayanan, sərhədlərimizi qoruyan ordumuzdan AŞPA-ya şikayət edib. Düşünün, özünə azərbaycanlı deyən kimsə, öz ordusundan düşmənlərə şikayət edərmi? Bu, açıq düşmənçilik, hətta erməniçilik deyilmi? Heç Ermənistan rəsmiləri bu qədər irəli gedə bilmirlər, amma özünə azərbaycanlı deyən bəzi ermənidən artıq ermənilər bu mənəviyyatsızlığı, düşmənçiliyi edirlər...

”Göründüyü kimi, söz azadlığını mənəviyyatsızlıq ilə qarışdıran, 30 il ərzində torpaqlarımızı işğal etmiş və 1 milyona yaxın azərbaycanlının məcburi köçkün, qaçqın şəraitində yaşamasının səbəbkarı olan ölkənin rəhbərini özünə örnək seçmiş bu radikallar əslində Ermənistanın cinayətlərinə şərik çıxırlar”, deyə bildirilir.

Əslində isə bu məqalədən də nəticə çıxararaq qeyd edə bilərik ki, hazırkı dövrə qədər bizlər yüzlərlə bu kimi faktları, dəlilləri, sübutları ictimai rəyin diqqətinə çatdırmışıq və dəfələrlə (!) bildirmişik ki, artıq bu xainlərin cavabları sərt və qətiyyətlə verilməli, gərəkdirsə onlar bu millətin adını daşımaqdan məhrum olunmalıdırlar. Onlara daha çox faşist ideologiyasına xas olan Daşnak, Krunk, ASALA kimi adlara layiqdirlər, hətta Andranik, Njde, Monte, Zori adları da sanki onların alınlarına vurulmuş silinməz möhür kimi həkk edilib. Belədirsə, bu zaman açıq-aşkar öz erməni aşiqlərinin ağuşlarında bəsləndiklərini, Paşinyana olan izafi məhəbbətlərini daha açıq-aydın ifadə etsinlər, hətta Sevinc Osmanqızı Nikolu arvadı Anna Akopyandan boşatdırıb, ona özü kimi bir erməni uşağı da bəxş etsin. Zatən Nikola aşiq deyilmi?

**Rövşən RƏSULOV**

## “Qeyri-qanuni çağırışlar etmək yolverilməzdir”



“Ölkədə nə baş verirsə hər biri qanunvericilik səviyyəsində həyata keçirilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Razi Nurullayev bildirib. Onun sözlərinə görə, insanları konstitusiya quruluşuna qarşı çıxmağa, mövcud rejimi devirməyə, xaos yaratmağa, stabilliyi pozmağa vadar etmək və onları dəstəkləmək düşmənlərimizin dəyirmanına su tökməkdir: ”Hal-hazırda Azərbaycanda daha stabil cəmiyyətin yaradılması üçün çalışmalıyıq. Çünki 44 günlük müharibədən çıxmışıq və bu müharibə nəticəsində azad etdiyimiz əraziləri yenidən bərpa edib 1 milyon əhalini həmin ərazilərə yerləşdirməliyik. Bu gün erməni lobbisi və Ermənistan dövləti Azərbaycanı bütün platformalarda vurmağa çalışır, Azərbaycana qarşı olan qüvvələrlə birlikdə hərəkət etmək təbii ki, Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə mənfi təsir göstərir. Azərbaycanda bütün siyasi hüquqlar və vəzifələr yerinə yetirilməlidir, hər kəs də qanunlar çərçivəsində öz hüquqlarından istifadə etməlidir, amma qeyri-qanuni hərəkətlər etmək, qeyri-qanuni çağırışlar etmək təbii ki, yolverilməzdir. Bu hallar baş verdikdə qanunvericilik səviyyəsində cəzalandırılır”.

***Abutel İlhamqızı***

## Erməni futbolçuların Azərbaycan bayrağını təhqir etməsi faktı ilə bağlı cinayət işi başlanıb

Erməni futbolçuları tərəfindən Azərbaycanın Dövlət bayrağına qarşı təhqiredici hərəkətlərin edilməsi faktı ilə bağlı Baş Prokuror tərəfindən cinayət işi başlanıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, Ermənistanın hərbi-siyasi rəhbərliyi özünün təcavüzkar mahiyyətini növbəti dəfə nümayiş etdirməklə milli ədavət və düşmənçilik niyyəti ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozmaqla ölkəmizə qarşı təxribat yönümlü hərəkətləri davam etdirir.



”Belə ki, bəzi kütləvi informasiya vasitələrində və müxtəlif sosial media səhifələrində erməni futbolçularının Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər etmələrini əks etdirən videogörüntülər yayılıb.

Qeyd edilən faktla bağlı Azərbaycan Respublikası Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 283.2.3 (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 324-cü (Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər) maddəsi ilə cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub.

İş üzrə hüquqi yardım haqqında vəsatətlər göndərilməklə digər ölkələrin prokurorluq orqanları, o cümlədən aidiyyəti dövlət qurumları ilə birgə cinayət törətmiş şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri tədbirlərin görülməsi təmin ediləcək”, - məlumatda qeyd edilir.

# Ermənistan Rusiyaya qarşı təhlükəli oyun aparır!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda ABŞ-ın təşəbbüsü ilə videoformatda keçirilən Demokratiya Sammitinə MDB ölkələrindən dəvət edilən yeganə lider olub.**



Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda ABŞ-ın təşəbbüsü ilə videoformatda keçirilən Demokratiya Sammitinə MDB ölkələrindən dəvət edilən yeganə lider olub.

Ermənistan hökumətinin başçısının sammitdəki çıxışı qısa, lakin son dərəcə diqqətəlayiq idi. Paşinyan bəyan edib ki, Ermənistan öz demokratiyasını gücləndirmək axtarışında bir çox problemlərlə üzləşir. "Bizim üçün ən böyük problem təhlükəsizliyimizə hərbi təhdidlərdir. Başqa bir problem ölkə daxilində demokratiya uğrunda mübarizədir. Təhdidlər sərhədlərimizdən kənardan gələndə bu problem daha da çətinləşir. Əgər biz bütün dünyada demokratiyanın cəlbediciliyini bərpa etmək istəyiriksə, bu çağırışlarla birlikdə mübarizə aparmaq üçün qüvvələrimizi birləşdirməliyik. Ermənistan demokratiyanın möhkəmləndirilməsi üzrə qlobal missiyaya öz töhfəsini verməkdə qərarlıdır və ümid edirik ki, bu işdə biz tək deyilik",- deyə Ermənistanın baş naziri bildirib.

Paşinyan, görünür, sərhədlərdən kənardan gələn təhlükə deyəndə Azərbaycanı nəzərdə tutur. Özü də daxildə demokratiya uğrunda mübarizənin altında- daxili müxalifətlə mübarizə. Amma müəyyən dərəcədə İrəvanın Azərbaycanı növbəti dəfə təhdid kimi təqdim etmək istəyi başa düşüləndirsə, o zaman sual yaranır: Amerika sammitində Ermənistanın baş nazirinin demokratik dövlətlərin birləşməsi çağırışlarını necə qəbul etmək olar? Hansı ki, bu siyasi tədbirə dəvət edilməyən Rusiya və Çinin sərt etirazına məruz qaldı.

Nikol Paşinyanın kimə qarşı birləşməyi təklif etdiyini Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko "Moskva-Bakı" platformasına verdiyi müsahibəsində şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Aleksey Valeriyeviç, Nikol Paşinyan kimə qarşı birləşməyə çağırır? Yeri gəlmişkən, Ermənistan Demokratiya Sammitində iştirak edən yeganə MDB ölkəsi oldu. Özü də Rusiyanın müttəfiqi sayılır. Bu cəfəngiyyat deyilmi?***

- Belə çıxır ki, birləşmək çağırışı həm də Rusiyanın əleyhinə gedir. Əslində, burada heç bir cəfəngiyyat yoxdur. Bu təbiidir. NATO-nun rəsmi saytına baxın, Alyansla Ermənistan arasında əməkdaşlıq səviyyəsinə baxın- NATO-nun ən çox birgə proqramlar həyata keçirdiyi KTMT-yə üzv dövlətdir. Və bu əməkdaşlıq daim genişlənir. Sual olunur ki, nə üçün MDB ölkələrindən yalnız Ermənistan dəvət olunub? Bu o deməkdir ki, Qərb Ermənistana bir növ kökə verməklə ona stavka edir. Onu Rusiyaya qarşı qeyri-dost hərəkətlərə görə mükafat verməyə hazır olduqlarını göstərmək üçün dəvət etdilər. Yəni, erməni tərəfinin sammitdə iştirakında məqsəd Ermənistanla Rusiya arasında uçurumun genişləndirilməsinə çalışmaqdır.

***- Yəni, bu siyasi məntiqdən çıxış edərək, Ermənistan müttəfiqi Rusiyaya hörmət naminə sammitdə iştirakdan imtina edə bilmədi, daha doğrusu, bunu istəmədi? Belə bir sammitə ehtiyacı olmadığı barədə bəyanat verməklə Rusiyanın mövqeyini dəstəkləyə bilərdi...***

- Təbii ki, Ermənistan bundan imtina edə bilərdi. Amma o istəmədi. O, Rusiyadan Qərbə keçmək niyyətində olduğunu göstərdi. Belə olan halda Ermənistan Rusiyanın ona kömək etməyə tələsəcəyini gözləməsin. Paşinyan üçün isə sammitdə iştirak və ümumiyyətlə, belə qərbyönlü kurs, mən deyərdim ki, ən yaxşı siyasət variantı deyil. Çünki Paşinyan Qərb üçün müvəqqəti fiqurdur. Onlar Ermənistanda hakimiyyətə daha da qərbpərəst və daha da anti-Rusiya liderinin gələcəyinə ümid edirlər. Ancaq bu, bir az daha çox vaxt aparır.

Qərb üçün Ermənistan bir saatlı bombadır... Hətta deyərdim ki, Qərb artıq çoxdan Ermənistandan belə bir bomba hazırlayıb. Qərb dövlətləri Ermənistandan KTMT və Aİ-ni sarsıtmaq üçün istifadə edirlər. Ermənistanın bu cür strukturlarda olması onların xoşuna gəlir, çünki İrəvan onların işini əngəlləyir və mümkün olduğundan daha az effektiv edir. Ona görə də Qərb Ermənistan rəhbərliyinin xəttini dəstəkləməyə hazırdır.

***- Paşinyan Azərbaycana eyham vurdu ki, bu ölkə, təhlükədir. Və sammitdən əvvəl Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi açıq şəkildə dedi ki, bu siyasi tədbirdən Azərbaycana qarşı platforma kimi istifadə etmək İrəvana lazımdır...***

- Belə çıxır ki, İrəvan da göstərir ki, əslində Ermənistanın Rusiyanın vasitəçiliyi ilə əldə olunan razılaşmalara ehtiyacı yoxdur... Bu, onu göstərir ki, o, NATO-nun regiondakı qoşunlarını qəbul etməyə hazırdır, bir şərtlə ki, Qərb dövlətləri İrəvana noyabrı yenidən yazmağa kömək etsinlər. Moskvanın vasitəçiliyi ilə əldə olunan Qarabağ nizamlanmasına dair razılaşmaları.

Paşinyan birləşmək çağırışını harada etdi? İştirakçıların əksəriyyətinin NATO-ya üzv dövlətlər olduğu sammitdə. Bu, Ermənistanın ya NATO vasitəsilə, ya da milli miqyasda demokratik dövlətlərdən hərbi yardım gözlədiyi siqnalını verir. O, ABŞ və Fransa ilə maraqlanır, bu da onun Rusiyadan uzaqlaşmaq və NATO ilə qarşılıqlı fəaliyyətə can atmaq siyasətini təsdiqləyir.

Yəni, belə başa düşülür ki, NATO Ermənistan vasitəsilə Transqafqaza daxil olmalıdır. Paşinyan Amerika sammitində belə bir bəyanatla çıxış edərək KTMT-ni bəyənmədiyini, Ermənistanın alternativ olaraq yeni hərbi tərəfdaşlar axtarmaq niyyətində olduğunu bildirir. O, KTMT ilə qarşılıqlı əlaqəni NATO ilə qarşılıqlı əlaqə ilə əvəz etmək istəyir. Əslində, əvvəllər artıq Yerevanda rəsmilərdən belə bəyanatlar var idi ki, KTMT reaksiya vermək istəməsə, biz digər beynəlxalq tərəfdaşlarımıza müraciət etməli olacağıq...







Bu yaxınlarda Ermənistan və Azərbaycan sərhəddində hər iki tərəfdən itkilərin olduğu noyabr təxribatı təsadüfi deyil. Yadınızdadırsa, o zaman növbəti dəfə məlumat yayıldı ki, Ermənistan yardım üçün KTMT-yə müraciət edib, Rusiya isə rəsmi müraciətin olmadığını bildirib. Deməli, bu vəziyyəti Ermənistanın NATO ilə fəal qarşılıqlı əlaqəsinə əlavə etsək, o zaman İrəvanın fikrincə, Rusiyanın vəziyyətə reaksiyası "düzgün" olmaması Paşinyana KTMT-nin öhdəliklərini yerinə yetirmədiyini qışqırmağa imkan verir. KTMT-yə üzv olan ölkələrin heç biri həqiqətən Ermənistanı müdafiə etmək fikrində deyil. Onlara Azərbaycanla münaqişə və ümumiyyətlə, yeni eskalasiya lazım deyil.

***- Əliyev, Paşinyan və Avropa İttifaqı Şurasının rəhbərinin görüşündə Moskvanın vasitəçiliyi ilə əldə olunmuş razılaşmaların yenidən yazılması cəhdi olacaqmı?***

- Məncə, Paşinyan görüşdə deyə bilər ki, Rusiya bizə qarşı həddindən artıq qeyri-konstruktivdirsə, NATO və Avropa Şurası, əksinə, çox konstruktivdir, bunlar bizim imtiyazlı tərəfdaşlarımızdır.

Yeri gəlmişkən, ermənilərin həmişə "müqavimət nümunəsi" olduğunu deməyə başlayan Fransa prezidentliyinə namizəd Erik Zemmur müharibədən sonra ermənilərə dəstək verməyə hazır olduqları barədə İrəvana gəlib. Yəni Ermənistan indi tam gücü ilə istifadə edəcək. Bu, xüsusilə Fransada, yeri gəlmişkən, aprelin 24-də- qondarma "soyqırım günü"ndə keçiriləcək prezident seçkiləri ərəfəsində özünü daha qabarıq şəkildə büruzə verəcək- bu seçkilər əhval-ruhiyyəni qızışdıracaq və müxalifətçilərin dəstəyini artıracaq. Ermənipərəst elektorat bu məsələni qabaqcadan həll etməyə çalışacaq.

Amma son nəticədə Qərb əslində Ermənistan üçün heç nə etməyəcək. Bunların hamısı ilğımdır. Heç kim Ermənistan üçün döyüşməyəcək ki, o, Azərbaycanın artıq işğaldan azad olunmuş əraziləri üzərində nəzarəti bərpa etsin. ABŞ və Fransa bunu həqiqətən istəsəydi belə, bölgəyə quru qoşun göndərmək, burada baza yerləşdirmək lazım gələcəkdi ki, bu da təbii ki, Rusiya və Türkiyənin müqavimətinə səbəb olacaqdı. Ona görə də Ermənistan bu oyundan Rusiyaya qarşı NATO-nun "peşka"sına çevrilməkdən başqa heç nə əldə etməyəcək. Əgər Ermənistan rəhbərliyi "peşka" olmaq istəyirsə, biz buna qadağa qoya bilmərik.

Paşinyan, açığı, oturduğu budağı kəsir. KTMT-dən və Rusiya bazasından yapışmaq əvəzinə, Rusiyadan qopmaq üçün hər şeyi edir. Və əgər Ermənistan artıq Rusiya ilə son dərəcə ciddi şəkildə qopmağa başlasa, qərbpərəstlik daha da güclənməyə başlasa, o zaman respublikanı fəlakət gözləyir. Məncə, sonunu təxmin etmək asandır. Qərbyönümlü əhval-ruhiyyə ona gətirib çıxaracaq ki, Ermənistan özü Rusiya sülhməramlılarının və Gümrüdəki bazanın çıxarılması məsələsini qaldıracaq. O zaman Ermənistan Qarabağın bir hissəsi üzərində son nəzarətini də itirəcək. İstər kor insan, istərsə də hansısa biri bunu məqsədli şəkildə, qəsdən edildiyini başa düşə bilər.

Ermənistan, görünür, nə etdiyini dərk etmir. Respublika Birinci Qarabağ müharibəsindən yanlış nəticələr çıxardı. Ondan sonra Ermənistanda İsrail ordusu ilə müqayisə oluna biləcək yenilməz ordusu olduğunu düşünürdülər. Onda biz hər zaman eşidirik ki, kimsə Ermənistana "xəyanət edir"- gah onların rəhbərliyi, gah Rusiya, gah da Qərb. Erməni cəmiyyətində qeyri-sağlam şüur formalaşıb ki, onu aradan qaldırmaq kifayət qədər çətindir.

***- Yeri gəlmişkən, bu günlərdə "3+3" məsləhətçi regional formatının (3 Zaqafqaziya dövləti və onların 3 qonşusu) ilk iclası keçirildi. Düzdür, Gürcüstan formatdan imtina etdi və görüşdə iştirak etmədi. Formatın perspektivləri nədir?***

- Hesab edirəm ki, bu gün perspektivlər təəssüf ki, zəifdir. Qərb bu formatı tormozlamaq üçün Ermənistandan istifadə edəcək. Amerikalılar onların iştirakı olmadan regional formatın yaranmasından çox qorxurlar. Buna görə də, prosesi mümkün qədər tormozamaq üçün hər şeyi edəcəklər. Biz artıq görürük ki, ABŞ-ın təsiri altında olan Gürcüstan iştirakdan necə imtina edib. Bəli, formatda Ermənistan, Türkiyə və Azərbaycan bir masa arxasında əyləşdilər. Amma Ermənistanın gördüyü işlər fonunda bu, ümumiyyətlə, kifayət qədər ziddiyyətlidir. Təbii ki, bu meydançada konsensus, qarşılıqlı faydalı əməkdaşlıq axtarışları axtarılacaq. Ancaq bir çox risklər də var.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

Səs

15 dekabr
2021-ci il

# “Rəqibin adından çəkinməyəcəyik”



“Arzuolunmaz rəqibin düşdüyünü fikirləşə bilərik. İlk olaraq bizim rəqibimiz bilindi. Futbolçularımın daha da böyüməsi, Azərbaycana daha böyük klubların gəlməsi baxımından deməzdim sevinmişəm. Futbolumuzun inkişafı üçün hər zaman demişəm ki, bunun hər hansı bir faydası olacaq. ”Marsel”ə qədər də xeyli sayda güclü rəqiblərimiz olub. Bəzi matçlarda uduzmağımıza baxmayaraq, futbolçular layiqli çıxış etməyi bacarıblar”.

Qol.az xəbər verir ki, bu sözləri ”Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Konfrans Liqasının pley-off mərhələsinin püşkatmasını dəyərləndirərkən deyib. O, pley-offda ”Marsel”ə rəqib olmalarına münasibət bildirib: ”Qurbanov ”Marsel”in güclü olmasının onları qorxutmadığını və fransızlara qarşı uğurlu oyunlar göstərməyə çalışacaqlarını vurğulayıb: ”Məncə, bu il təcrübəmiz daha çoxdur. Hamı fikirləşə bilər ki, güclü rəqiblə qarşılaşacağıq. Ancaq bu turnirə başlayanda məndə hansı istək, inam var idisə, futbolçulara necə güvənirdimsə, ”Marsel”ə qarşı da eyni fikirdəyəm. İki ay vaxtımız olacaq, rəqibi daha yaxından tanıyacağıq. Hər xırda detalı futbolçularımıza düzgün çatdırmağa və layiqli mübarizə aparmağa çalışacağıq. Rəqibin adından çəkinməyəcəyik. İnanıram ki, gələn il başlanğıcda ən yaxşı oyunlarımızdan biri ”Marsel”ə qarşı olacaq. Komandama güvənirəm. Məğlub olmaq sözünü demək istəmirəm. Ancaq düşünürəm ki, futbolçularımız rəqibdən çəkinmədən layiqli mübarizə aparacaq”.

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

## Gecə yatanda telefonu yastığın altına qoyanlara XƏBƏRDARLIQ



Bir çox insan gecə laqeydlik edərək mobil telefonlarını yastığın altına qoyur. Təəssüf ki, onları hansı təhlükənin gözlədiyini isə bilmirlər. Ondan başlayaq ki, sağlamlığa zərərli olan radiasiya smartfondan gəlir. Həm də təkcə zehni deyil, eyni zamanda fiziki baxımdan da zərərlidir.

Yatan insanı şüalandıran elektromaqnit dalğaları dəhşətli nəticələrə səbəb ola bilər. Kişilərdə, məsələn, sonsuzluğa. Əgər mobil telefon ürək bölgəsinə yaxındırsa, narahatlıq səviyyəsi əhəmiyyətli dərəcədə artır.

Ümumiyyətlə, yastığın altındakı smartfon yuxunun keyfiyyətinə mənfi təsir göstərir ki, bu da tez-tez oyanmaqla, hətta yuxusuzluqda özünü göstərir. Bundan əlavə, baş ağrıları meydana gəlir, qıcıqlanma yaranır və xərçəngə tutulma riski artır.

Əgər siz də smartfonunuzda mürgüləmə funksiyası olan zəngli saatdan istifadə etsənizsə, o zaman beyin cari yuxu fazasının daimi kəsilməsinə (siz oyanırsınız, düyməni basırsınız və yenidən yuxuya dalırsınız) neqativ reaksiya verəcək.

Siqnallar dopamin və serotoninin alternativ istehsalına başlayır ki, bu da sonradan gün ərzində beynin ”uğursuzluqlarına” təsir göstərir: diqqəti cəmləyə bilməmək, əsəbilik, yorğunluq, əhval dəyişikliyi, süstlük və s.

Smartfonu yastığının altına qoymamağın başqa bir səbəbi yanğın təhlükəsidir. Belə hallar olub, həm də dəfələrlə./lent.az

## ELAN

### “XƏZƏRYANI İXTİSASLAŞDIRILMIŞ HƏRRAC MƏRKƏZİ”

**15 dekabr 2021-ci il tarixli ”Səs” qəzeti üçün**

Mənzil və Q/Y sahəsi

Lot 001/21. Bakı şəh, Yasamal r-nu, Hüseyn Cavid pr-ti, 558 məhəllədə istifadədə olan 0.10086 ha torpaq sahəsində yerləşən 30 nömrəli, 5 mərtəbəli binada, 2 otaqlı, 2 nömrəli mənzil (ü/s 43.8 kv.m) və Bakı şəh, Yasamal r-nu, 558 məhəllə, Hüseyn Cavid pr-ti 30 ( zirzəmi ilə birlikdə) q/y sahəsi ( ü/s 78 kv.m)

İlkin Satış qiyməti 480 000 manat.

Açıq hərrac 17 dekabr 2021-ci il tarixdə saat 11:00-da keçiriləcəkdir.

Satış qiymətinin 5% həcmində olan beh hərrac təşkilatının depozit hesabına ödənilməlidir. Hərracda qalib olunan şəxs alış qiyməti 7 təqvim günü ərzində bankın depozit hesabına köçürülməlidir. Qalib olmayan alıcıların behləri 7 təqvim günü müddətində geri qaytarılır.

Açıq hərracda iştirak etmək üçün aşağıdakı sənədlər Hərrac Mərkəzinə təqdim olunmalıdır:

1) Fiziki şəxslər - şəxsiyyət vəsiqəsinin surətini və hərracda iştirak etmək üçün ərizə (sifariş)

2) Hüquqi şəxslər - təsis sənədlərinin surətini və hərracda iştirak etmək üçün ərizə (sifariş)

3) Satış qiymətinin 5% məbləğində behin ödənilməsi haqqında qəbz

Hərracın keçirilmə yeri və ünvanı: Bakı şəh., Nərimanov r-nu, Yusif Vəzir Çəmənzəminli küçəsi 119C (”Afen Plaza” 4-cü mərtəbə). Tel: (+994 12) 511-00-94; Mob: ( +994 70 ) 311-00-94

## Məşhur professor gizli araşdırmanı ifşa etdi

Amerika Kəşfiyyat Xidməti ”CIA”, ”UFO”-larla bağlı araşdırmalarını sürətini azaltmadan davam etdirir. SİA xarici mətbuata istinadən xəbər verir ki, ABŞ-ın Stenford Universitetinin patoloji professoru Qarri Nolan MKİ-nin UFO-lar haqqında dünyadan gizlətdiyi araşdırmanın nəticələrini açıqlayıb. Nolan MKİ-nin tələbi ilə ”UFO”-larla qarşılaşan pilotların beynini açdığını bildirib. Patologiya professoru 2017-ci ildə yadplanetli körpəyə aid olduğu iddia edilən skeleti analiz edib və onun insan skeleti olduğunu üzə çıxarıb.

***Rüqəyya Orucova***

## Başsağlığı

Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasının 2008-ci il məzunları Mirsənani Seyidova atası

**Mirsaleh Seyidovun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**